Xalqın qəzeti!

# Xalq qəzeti

№ 187 (30881) 4 sentyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan Çinin zəfər təntənəsini alqışlayır

*Azərbaycan Prezidenti İlham Əliyev Pekində Qələbə paradını izləyib*



Səhifə ⇨ 2

## Çin, ŞƏT və Yeni dünya düzənində Azərbaycan amili

*Yaxud qlobal siyasi arxitekturada Bakı–Pekin əməkdaşlıq formulu*

**Dünən Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş parad keçirildi. Paradın Çinin daha bir şəhəri Tiencində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) 25-ci sammitinin əsnasında düzənlənməsi diqqət çəkməkdədir. O sammit ki, orada Prezident İlham Əliyev də iştirak etdi. Dövlətimizin başçısı təntənəli parada da qatıldı.**




Bütün bunlar, eyni zamanda Prezident İlham Əliyevin Çində yüksək səviyyədə qarşılanması, rəsmi Pekinin Azərbaycan amilinə verdiyi böyük önəmin nəticəsidir. Önəm nə ilə səciyyələnir və Azərbaycanın Çinlə münasibətlərə, o cümlədən ŞƏT platformasına yanaşması necədir, bu barədə yazımızın ikinci hissəsində söz açacağıq.

*(ardı 5-ci səhifədə)*

## Əgər “snapback” mexanizmi işə salınsa...



Səhifə ⇨ 5

## Avropa institutları Cənubi Qafqaz siyasətini dəyişməyə məhkumdur

**Bu il avqustun 8-də Vaşinqtonda ABŞ prezidenti D.Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazda uzun illərdir davam edən geosiyasi münaqişələrin məntiqi sonluğuna doğru atılmış ən mühüm addım kimi dəyərləndirilir.**

Burada əsas diqqətçəkən məqam odur ki, paraflanma aktı faktiki olaraq Azərbaycanın diplomatik qələbəsini təsdiqlədi. Azərbaycan artıq diplomatik manevr qabiliyyəti, beynəlxalq arenada balanslı mövqeyi ilə də proseslərin aparıcı aktoruna çevrildi. Əgər 2020-ci il Vətən müharibəsi Azərbaycanın hərbi üstünlüyünü təsdiqləmişdisə,



2025-ci ilin avqustundakı Vaşinqton görüşü bu üstünlüyün diplomatik və siyasi müstəvidə rəsmiləşdirilməsini göstərdi.

*(ardı 4-cü səhifədə)*

## Qəbələ: Polad ürəkli insanların Zəfərə layiq uğurları

Səhifə ⇨ 9

## Azərbaycan Çinin bütün təşəbbüslərini dəstəkləyir



Səhifə ⇨ 7

## “Aİ missiyası”nın geosiyasi alət olduğu təsdiqlənir

*Səfir Maraqosun etirafları “binokl diplomatiyası”nın mahiyyətini açır*



**“Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş”in avqustun 8-də Vaşinqtonda paraflanmış mətnində, bir qədər də dəqiqləşdirsək, VII maddəsində bildirilir ki, tərəflər qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. Həmçinin qeyd edilir ki, tərəflər qarşılıqlı sərhədin delimitasiyası və sonrakı demarkasiyasının başa çatmasına qədər, sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması məqsədilə, hərbi sahə də daxil olmaqla, qarşılıqlı razılaşdırılmış təhlükəsizlik və etimad-quruculuğu tədbirləri həyata keçirəcəklər.**

*(ardı 7-ci səhifədə)*

## Rusiya–Azərbaycan: iqtisadi əməkdaşlıq davam edir



**Rusiya ilə Azərbaycan arasında dostluq və iqtisadi münasibətlər mövcud çətinliklərə baxmayaraq, perspektivli olaraq qalır. Bunu “Pravda.Ru”ya müsahibəsində Dövlət Dumasının beynəlxalq məsələlər komitəsi sədrinin birinci müavini Aleksey Çepa deyib. Deputat qeyd edib ki, istənilən fikir ayrılığı və mübahisələr müvəqqətidir və hər iki tərəf üçün zərərlidir. Onun fikrincə, münasibətlərdə istiləşmə qaçılmazdır və bu, zaman məsələsidir.**

*(ardı 6-cı səhifədə)*

## Braziliya Latın Amerikasında önəmli ticarət tərəfdaşımızdır



Səhifə ⇨ 8

## Xıdırlı, biz də qayıtdıq!



Səhifə ⇨ 11

# Azərbaycan Prezidenti İlham Əliyev Pekində Qələbə paradını izləyib






**Sentyabrın 3-də Çinin paytaxtı Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş parad keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paradı izləmək üçün Çinin paytaxtı Pekindəki Tiananmen Meydanına gəliblər.

Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuan Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşılayıblar.






# Pekində paradı izləmiş nümayəndə heyətlərinin başçılarının və xanımlarının şərəfinə ziyafət

## *Azərbaycan Prezidenti İlham Əliyev məclisdə iştirak edib*

**Sentyabrın 3-də Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpinin və birinci xanım Pen Liyuanın adından yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş paradda iştirak edən nümayəndə heyətlərinin başçılarının və xanımlarının şərəfinə ziyafət verilib və konsert proqramı təqdim olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

***AZƏRTAC***




# San-Marino Respublikasının Regent Kapitanları Zati-aliləri xanım Denize Bronzettiyə və cənab İtalo Riqiyə

**Zati-aliləri!**

San-Marino Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, San-Marino xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 sentyabr 2025-ci il**

# İordaniya səfiri Milli Məclisdə



**Sentyabrın 3-də Milli Məclisin sədri Sahibə Qafarova İordaniya Haşimilər Krallığının Azərbaycandakı səfiri Ömər Bərəkət əl-Naharla görüşüb.**

Sahibə Qafarova iki dost və qardaş ölkələr olan Azərbaycan ilə İordaniya arasında 32 il öncə diplomatik münasibətlərin yaradılmasından keçən dövr ərzində ikitərəfli münasibətlərin yüksək səviyyəyə çatdırıldığını, hazırda isə müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcud olduğunu bildirib.

Görüşdə ölkələrimiz arasında parlamentlərarası əlaqələrin hazırkı səviyyəsi yüksək qiymətləndirilərək, bu münasibətlərin dərinləşməsində qarşılıqlı səfərlərin rolu və parlament dostluq qruplarının fəaliyyəti vurğulanıb.

Azərbaycanda səfir kimi fəaliyyətindən məmnunluğunu bildirən İordaniyanın ölkəmizdəki səfiri Ömər Bərəkət əl-Nahar görüşə görə təşəkkürünü bildirib, ölkəmizdə diplomatik fəaliyyət göstərdiyi müddətdə ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində görülmüş işlərdən danışıb.

*

**Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Fələstin Dövlətinin ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Əhməd Metani ilə də görüşüb.**

Görüşdə Sahibə Qafarova səfiri ölkəmizdə fəaliyyətə başlaması münasibətilə təbrik edərək, ona uğurlar arzulayıb. Söhbət zamanı xalqlarımız arasında ortaq dəyərlər əsasında qurulmuş dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğu qeyd edilib.

Səfir Əhməd Metani Fələstin xalqına dəstəyi, həmçinin münaqişənin həllində göstərdiyi səylərə görə Azərbaycana təşəkkürünü bildirib. O, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü xüsusi qeyd edərək, müsbət təəssüratlarını bölüşüb.

Görüşdə, həmçinin parlamentlərarası münasibətlər, o cümlədən beynəlxalq parlament təşkilatları çərçivəsində birgə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.



***XQ***

# Səfər başa çatdı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri sentyabrın 3-də başa çatıb.**

Pekin Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Azərbaycan Türkiyənin təşəbbüsü olan Himayədar Ailə ilə bağlı Nazirlər Bəyannaməsinə qoşulub



**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri çərçivəsində qardaş ölkənin ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaşla görüş olub.**

Anar Əliyev Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyi tərəfindən hazırlanmış Himayədar Ailə ilə bağlı Nazirlər Bəyannaməsinin uşaqların ailə mühitində böyüməsinin təşviqinə mühüm dəstək olduğunu bildirib. Bəyannamənin himayədar ailə sisteminin inkişafı üçün beynəlxalq əməkdaşlıq platforması rolunu oynayacağını qeyd edib, bu təşəbbüsə görə təşəkkürünü bildirib.

Mahinur Özdemir Göktaş sosial xidmətlər, himayədar ailə modelinin tətbiqi ilə bağlı məqsədyönlü əməkdaşlığın həyata keçirildiyini, aparılan ardıcıl təcrübə mübadilələrinin əhəmiyyətini qeyd edib.

Görüşdə iki qurum arasında gələcək əməkdaşlıq istiqamətlərinə dair fikir mübadiləsi aparılıb.

## *Konstitusiya və Suverenlik İli*

**2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması hüquqi dövlət quruculuğu prosesində Konstitusiyanın mühüm yerini, onun cəmiyyətin hərtərəfli inkişafında, dövlət suverenliyinin təmin olunmasında oynadığı əvəzsiz rolu bir daha gündəliyə gətirmişdir. Konstitusiya – təkcə hüquqi sənəd deyil, həm də xalqın dövlətçilik iradəsini, milli kimliyini və ümumbəşəri dəyərlərə sadiqliyini ifadə edən ali hüquqi aktdır. O, dövlətin hüquqi strukturunun təməlini formalaşdırmaqla bərabər, insan hüquq və azadlıqlarının müdafiəsində təməl rolunu oynayır, hüquqi dövlətin sütununu təşkil edir.**

# Prokurorluqların ali missiyası




Azərbaycan Respublikasının Konstitusiyası əsasında dövlət hakimiyyəti təşkil olunur, vətəndaşların hüquq və azadlıqları təmin edilir, ictimai münasibətlərin inkişaf istiqamətlərini müəyyənləşdirilir. Hüquqi mexanizmlərin tətbiqi sahəsində Konstitusiyanın tənzimləyici rolu bütün dövlət strukturları üçün istiqamətverici çərçivə rolunu oynayır. Bu baxımdan Konstitusiya yalnız hüquq sisteminin deyil, bütövlükdə cəmiyyətin siyasi, iqtisadi, sosial və mənəvi həyatının tənzimlənməsinin mənbəyidir.

Müasir dövrün çağırışları prokurorluq orqanlarının da fəaliyyətində institusional yanaşmaların təkmilləşdirilməsini, qanunçuluğun təmin olunmasında və insan hüquqlarının qorunmasında daha çevik və şəffaf mexanizmlərin tətbiqini zəruri edir. Bu xüsusda Azərbaycan Respublikası Prokurorluğunun son illərdə keçdiyi inkişaf yolu, həyata keçirilən struktur və funksional islahatlar, rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi nəticəsində daha çevik və vətəndaş yönümlü idarəetmə modelinin formalaşdırılması ilə səciyyələnir. Xüsusən də bu islahatlar prosesində hüquqi maarifləndirmə fəaliyyətinin gücləndirilməsi, vətəndaşların hüquqi biliklərinin artırılması prokurorluq orqanlarının fəaliyyətində əsas strateji istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Bu kontekstdə şəhər və rayon prokurorluqları tərəfindən həyata keçirilən maarifləndirici tədbirlər böyük əhəmiyyət daşıyır. Belə ki, Prokurorluq əməkdaşlarının tədbirlərdə iştirak edərək Konstitusiyanın hüquq sistemimiz üçün fundamental əsas yaratması, onun müddəalarının hüquqi şüurun formalaşmasında və hüquq mədəniyyətinin inkişafında əhəmiyyətinə dair ətraflı məlumat verirlər. Bu istiqamətdə sistemli fəaliyyət hüquqi savadlılığın artmasına və konstitusion hüquqların daha effektiv müdafiəsinə xidmət edir.

Azərbaycan Respublikasının hüquq sisteminin əsasında insan və vətəndaş amili dayanır. Dövlətin ali məqsədi kimi vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, onların ləyaqətli həyat şəraitinin və hüquqi təhlükəsizliyinin təmin olunması əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Konstitusiya və digər normativ-hüquqi aktlar ilə təsbit olunmuş bu vəzifə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas təməl daşı hesab edilir. Prokurorluq sistemində aparılan islahatlar və müasir dövrün tələblərinə uyğun olaraq tətbiq edilən yeniliklər də prokurorluğun hüquqi dövlətin möhkəmlənməsi və insan hüquq və azadlıqlarının təminində artan rolunu şərtləndirir. Bunun nəticəsi olaraq, prokurorluq orqanları ictimai etimadın yüksəldiyi, qanunçuluğun və ədalətin təminində mühüm dayaqlardan birinə çevrilib.

Əhəmiyyətli məqamlardan biri də odur ki, prokurorluq əməkdaşları ictimai tədbirlərdə ümummilli lider Heydər Əliyevin Konstitusiyanın hazırlanması və qəbul olunması prosesindəki müstəsna xidmətləri barədə ətraflı məlumat verirlər. Qeyd olunur ki, Əsas Qanunumuz bütövlükdə Ümummilli liderin dövlətçilik fəlsəfəsini, azərbaycançılıq ideologiyasını və milli mənəvi dəyərləri əks etdirən təməl sənədidir. Təsadüfi deyil ki, Ümummilli liderin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə keçirilmiş Referendumla qəbul olunan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilib. Dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilib.

Prokurorluq, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm hüquqi institut kimi çıxış edir. O, yalnız cinayət təqibi və qanunvericiliyə nəzarət funksiyalarını yerinə yetirən orqan deyil, eyni zamanda hüquq-mühafizə sistemində insanların ləyaqətinin, konstitusion hüquqlarının və ədalətli münasibətlərin təminatçısı rolunda çıxış edir. Prokurorluğun fəaliyyəti hüquqi dövlət prinsiplərinə əsaslanaraq, hər bir fərdin qanun qarşısında bərabərliyinin və hüquqlarının effektiv müdafiəsini təmin etməyə yönəlib.

Digər mühüm fəaliyyət istiqaməti isə ətraf mühitin qorunması sahəsində prokurorluğun rolu ilə bağlıdır. Bu istiqamətdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırıqları, ətraf mühitlə bağlı milli prioritetlər, inkişaf proqramlarının tələbləri əsas götürülür.

Qlobal iqlim dəyişikliyi və ekoloji təhlükələrin artması fonunda bu məsələ müasir dövrün mühüm çağırışlarından birinə çevrilib.

Prokurorluq orqanları tərəfindən ətraf mühitin mühafizəsinə yönələn hüquq pozuntularının qarşısının alınması, ekoloji cinayətlərin ifşası və ictimai ekoloji şüurun artırılması istiqamətində mühüm tədbirlər görülür. Ətraf mühitə ziyan vuran fəaliyyətlərin aşkarlanması və bu sahədə qanun pozuntularının hüquqi məsuliyyətə cəlb olunması təbiətin və insanların sağlam həyat mühitinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Ekoloji qanunvericiliyə əməl olunmasına nəzarətin gücləndirilməsi ekoloji mühitə zərər vuran amillərlə daha effektiv mübarizə aparmağa kömək edir və iqlim dəyişikliyi ilə mübarizə və biomüxtəlifliyin qorunması üzrə milli səylərdə əsas rol oynayır.

Eyni zamanda Prokurorluq orqanları Konstitusiyada əks olunan ali hüquqi prinsiplərə sadiq qalaraq, dövlət başçısı cənab İlham Əliyevin qanunçuluğun və vətəndaş məmnunluğunun təmin edilməsi, hüquq siyasətinin milli prioritetlərinin həyata keçirilməsində qarşıya qoyduğu vəzifələrdən irəli gələrək hüquqi maarifləndirmənin təşkili, ətraf mühitin qorunmasında mühüm funksional missiyasını uğurla yerinə yetirir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması bu missiyanın əhəmiyyətini bir daha ön plana çəkir və dövlətçilik ənənələrinin daha da möhkəmləndirilməsinə xidmət edir.

***Mədinə PAŞAYEVA,***
***Bakı şəhəri Qaradağ rayon prokurorunun köməkçisi,***
***I dərəcəli hüquqşünas***

# Avropa institutları Cənubi Qafqaz siyasətini dəyişməyə məhkumdur

(əvvəli 1-ci səhifədə)

Avropa institutları – Aİ, AŞPA və AP – üçün isə bu hadisə köklü nəticələr doğurur. Çünki bu qurumlar uzun illər region siyasətini Ermənistanın arqumentləri və lobbi təsirlərinin prizmasından yürüdürdü. Azərbaycana qarşı sərgilənən ikili standartlı mövqe, siyasi qərəzli qətnamələr və əsassız tənqidlər Avropanın Cənubi Qafqazdakı rolunu obyektivlikdən uzaqlaşdırmışdı. Lakin yeni reallıq bu yanaşmanı davam etdirməyi mümkünsüz edir.

Sual ortaya çıxır ki, bəs Avropa institutları niyə bu dönüşə məcburdur?

Cavab sadədir: regionun güc balansı dəyişib, Ermənistan artıq sülh müqaviləsini imzalayan tərəfdir, ABŞ isə açıq şəkildə Azərbaycanın regional liderliyini tanıyır. Belə bir şəraitdə Avropanın köhnə yanaşmalarını davam etdirməsi onun təsir imkanlarını zəiflədər, hətta siyasi proseslərin kənarına atar. Beləliklə, 8 avqust paraflanması Avropa institutlarını seçim qarşısında qoydu: ya Azərbaycanın yeni mövqeyini qəbul edərək münasibətləri korrektə etmək, ya da reallıqdan uzaq siyasət yürüdərək təsirsiz oyunçuya çevrilmək. Əks halda, Vaşinqtonun təşəbbüsləri və Bakının qətiyyətli siyasəti fonunda Avropa siyasi passivlik girdabına sürüklənəcək.

*

Korrektənin məzmunu isə dərin və real dəyişikliklərdən ibarət olmalıdır. Əvvəla, siyasi münasibətlər müstəvisində Avropa institutları Azərbaycana qarşı uzun illər davam edən qərəzli mövqedən imtina etməlidir. AŞPA və AP-də qəbul edilən qətnamələrin böyük hissəsi birtərəfli xarakter daşıyır, çox zaman faktlardan uzaq və erməni lobbi dairələrinin təzyiqləri əsasında hazırlanırdı. Belə bir yanaşma Bakını Avropadan uzaqlaşdırdı və etimad böhranı yaratdı. İndi isə tamamilə fərqli şərait formalaşıb. Azərbaycan regionun aparıcı aktoru kimi konstruktiv dialoqa açıqdır və münasibətlərin gələcəyi qarşılıqlı maraqlar üzərində qurulmalıdır.

İkinci istiqamət iqtisadi əməkdaşlıqdır. Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyində əsas oyunçulardan biridir. Rusiya–Ukrayna müharibəsi Avropa İttifaqının alternativ enerji marşrutlarına olan ehtiyacını daha da artırdı. Bakı isə Cənub Qaz Dəhlizi vasitəsilə strateji tərəfdaş statusunu artıq sübuta yetirib. Belə bir vəziyyətdə Bakı diplomatik müstəvidə düşünülmüş və planlı addımlar ataraq regional balansı dəyişməyi bacarır. Azərbaycanın diplomatik qələbəsinin digər mühüm səbəbi balanslaşdırılmış xarici siyasət modelidir. Bakı həm Türkiyə ilə strateji müttəfiqliyini möhkəmləndirdi, həm də Rusiya, ABŞ, Aİ və digər regional güclərlə əməkdaşlıq kanallarını açıq saxladı. Məhz bu kontekstdə sual meydana çıxır: Azərbaycanın "qətiyyətli siyasət modeli" Avropaya hansı mesajı verir? Açıq mesaj budur ki, Azərbaycan artıq proaktiv siyasət yürüdən regional gücdür. Bakı bölgədə təhlükəsizliyin, enerji əməkdaşlığının və nəqliyyat dəhlizlərinin əsas təminatçısına çevrilir.

Azərbaycanın diplomatik qətiyyəti həm də beynəlxalq sistemdə kiçik dövlətlərin böyük güclər qarşısında necə müstəqil və effektli siyasət apara biləcəyinin nümunəsidir. İndi Cənubi Qafqazdakı bütün oyunçular – həm regional, həm də qlobal– Bakının razılığı və iştirakı olmadan mühüm qərarlar qəbul edə bilməzlər.

*

Əgər Avropa institutları – Aİ, AŞPA və AP – Azərbaycanın yeni statusunu qəbul etməsə, bu, hansı nəticələrə gətirib çıxara bilər? Ən önəmli nəticə Avropanın regiondakı siyasi təsir imkanlarının sürətlə zəifləməsidir. ABŞ artıq prosesin əsas vasitəçisi rolunu üzərinə götürüb, Türkiyə və Rusiya da bölgədə güclü aktor kimi iştirak edir. Avropa özünü kənarda saxlayarsa, Cənubi Qafqazda qərarların qəbulunda real təsir gücünü itirəcək.

Azərbaycanın strateji əhəmiyyəti enerji təhlükəsizliyində də mühüm rol oynayır. Rusiya qazından asılılığın azaldılması və alternativ enerji marşrutlarının genişləndirilməsi baxımından Bakı həlledici tərəfdaşdır. Əgər Avropa siyasi baxımdan qərəzli mövqeyini davam etdirərsə, bu, enerji əməkdaşlığında yeni maneələr yaradacaq. Eyni zamanda, Azərbaycan diqqətini Asiya bazarlarına və Türkiyə vasitəsilə Yaxın Şərqə yönəldə bilər ki, bu da Avropanın enerji təhlükəsizliyində itkilərə səbəb olacaq.

Geosiyasi baxımdan isə Cənubi Qafqaz Asiya ilə Avropa arasında əsas tranzit məkanıdır. Zəngəzur dəhlizi, Orta Dəhliz və digər strateji layihələr Azərbaycanın iştirakı olmadan mümkün deyil. Avropa institutları yeni reallığı qəbul etməsələr, bu layihələrdə ABŞ, Türkiyə, Çin və Rusiya ön plana çıxacaq, Aİ isə faktiki olaraq proseslərin kənarında qalacaq.



*

Uzun illər Aİ, AŞPA və AP regiondakı siyasətlərini "status-kvo" üzərində qurmuş, Ermənistanı "məzlum", Azərbaycanı isə "təhdid yaradan" dövlət kimi təqdim edən narrativdən çıxış etmişdilər. Qətnamələrdə, hesabatlarda və siyasi çıxışlarda bu yanaşma özünü aydın şəkildə göstərirdi. Lakin artıq bu yanaşmanı davam etdirmək mümkün deyil. Vaşinqtonda paraflanan saziş Azərbaycanın diplomatik üstünlüyünü təsdiqlədi və göstərdi ki, diplomatik masada da qətiyyətli, prinsipial və güzəştə getməyən tərəfdir. Ermənistan rəhbərliyinin sülh sənədinə imza atması isə faktiki olaraq Azərbaycanın şərtlərinin qəbul edilməsi anlamına gəlir. Bütün bunlar uzun illər boyu Avropa institutlarının təbliğ etdiyi "əzilən Ermənistan" obrazının tamamilə iflası deməkdir. Bura əlavə olaraq ABŞ faktorunu da xüsusi qeyd etmək lazımdır. Vaşinqtonun birbaşa vasitəçiliyi və Trampın prosesi öz adı ilə bağlaması Avropaya açıq mesaj verdi: Cənubi Qafqazda yeni siyasi düzəni artıq ABŞ müəyyənləşdirir. Avropa İttifaqının və ona bağlı institutların proseslərə gecikmiş reaksiyaları isə onları faktiki olaraq ikinci dərəcəli oyunçuya çevirir.

Belə bir şəraitdə Avropa institutlarının ənənəvi siyasəti artıq işləməyəcək. Azərbaycanı təzyiq hədəfi kimi seçmək, Ermənistanın lobbi dairələrinin diktəsi ilə hərəkət etmək nə siyasi məntiqə uyğundur, nə də mövcud geosiyasi reallıqla üst-üstə düşür. Əgər bu kurs davam etdirilsə, Avropa həm iqtisadi, həm də siyasi baxımdan bölgədə təsir imkanlarını tamamilə itirəcək.

Avropa institutları bu yeni reallığa necə adaptasiya ola bilər? Cavab aydındır – münasibətlərin korrektəsi qaçılmazdır. Amma bu korrektə real siyasət və praktik addımlarla müşayiət olunmalıdır. Avropa institutlarının destruktiv mövqe tutması sadəcə siyasi məntiqsizlik olardı. Əksinə, enerji əməkdaşlığının daha da genişləndirilməsi, nəqliyyat və logistika sahəsində birgə layihələrin reallaşdırılması Azərbaycanın mövqeyini gücləndirməklə yanaşı, Avropanın da maraqlarına xidmət edər.

Üçüncü istiqamət təhlükəsizlik məsələləridir. Cənubi Qafqaz artıq qlobal təhlükəsizlik gündəliyində əhəmiyyətli mövqe tutur. Azərbaycanın Türkiyə ilə strateji müttəfiqliyi, Gürcüstanla sıx tərəfdaşlığı və Orta Asiya ölkələri ilə artan əməkdaşlığı onu bölgənin əsas sabitlik dayağına çevirib. Avropa institutları bu reallığı qəbul etməyə məcburdur. Əgər Aİ "Şərq tərəfdaşlığı" proqramına yeni nəfəs vermək istəyirsə, Azərbaycanın təhlükəsizlikdə oynadığı rol açıq şəkildə tanınmalıdır.

Nəhayət, humanitar və sosial müstəvidə də korrektə qaçılmazdır. İllər boyu Avropa institutları Azərbaycana insan haqları, media azadlıqları və demokratik institutlar mövzusunda birtərəfli təzyiqlər göstərib. Lakin indiki şərait göstərir ki, Bakı Avropa ilə münasibətlərin əsasını qarşılıqlı hörmət və bərabərlik üzərində qurmağa üstünlük verir. Deməli, humanitar məsələlərdə dialoq yanaşması əsas prioritetə çevrilməli, tərəflər qarşılıqlı öyrənmə və əməkdaşlıq mühitini inkişaf etdirməlidirlər. Əks halda, sərt və birtərəfli yanaşmalar yenidən gərginlik yaradacaq və Avropanın Cənubi Qafqazdakı təsir imkanlarını zəiflədəcək.

*

Azərbaycanın 8 avqust Vaşinqton görüşündə əldə etdiyi nəticə uzun illər boyu ardıcıl, sistemli və qətiyyətli siyasətin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin siyasi kursu göstərdi ki,



Bundan əlavə, Avropa institutlarının beynəlxalq imici də risk altındadır. Uzun illər "ədalət, insan haqları və obyektivlik" dəyərlərini müdafiə etdiyini iddia edən Avropa, əgər qərəzli mövqeyini davam etdirərsə, həm öz etibarını, həm də beynəlxalq nüfuzunu itirəcək. Artıq təkcə Azərbaycan deyil, beynəlxalq ictimaiyyət də Avropanın ikili standartlarını aydın şəkildə görür.

Belə bir məqamda mühüm sual yaranır ki, Avropa institutları regional siyasətdə real güc mərkəzi olmaq istəyir, yoxsa yalnız simvolik bəyanatlarla prosesləri müşahidə etməklə kifayətlənəcək? Cavab onların qarşıdakı aylarda atacağı addımlardan asılıdır. Son olaraq qeyd etmək istərdik ki, vaxtında korrektə aparılmazsa, Avropanın Cənubi Qafqaz siyasəti yalnız itirilmiş fürsətlər tarixinə çevriləcək.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Yeni Kaledoniyada dekolonizasiyanın təxirə salınması

**Fransanın Yeni Kaledoniyaya qarşı apardığı kolonial siyasət Matinyon (1988), Numea (1998) və Bujival (2025) sazişlərində öz əksini tapıb. Bu fikirlər Bakı Təşəbbüs Qrupunun (BTQ) yaydığı bəyanatda yer alıb.**

Bəyanatda, həmçinin bildirilir ki, Yeni Kaledoniya Sakit okeanın cənubunda yerləşir. Əhalinin təxminən 40 faizini təşkil edən yerli kanaklar öz müqəddəratını təyin etmək uğrunda mübarizə aparırlar. 2025-ci il iyulun 12-də imzalanan Bujival Sazişi dekolonizasiya istiqamətində atılan addım yox, neokolonial siyasətdir. Yeni Kaledoniya hökumətində siyasi təmsilçilik və iqtisadi bərabərsizlik, xüsusilə də Yeni Kaledoniya iqtisadiyyatının dayağı olan nikel sənayesi ətrafında gərginliklər artarkən Fransa bu prosesləri, Kanakinin dekolonizasiya prosesini ertələyir. Bu isə BMT-nin 1514 saylı qətnaməsində əks olunan dekolonizasiya prinsiplərinə ziddir.

### Matinyon Sazişi (1988): yerinə yetirilməmiş vəd

1988-ci ildə Fransanın kolonial siyasətinə qarşı kanakların uzun illər davam edən müqavimətindən sonra Matinyon Sazişi imzalanır. Saziş 10 il sonra referendumun keçirilməsini vəd edirdi. Referendum isə heç vaxt keçirilmədi və onun əvəzinə Numea Sazişi imzalandı. Bu manevr Fransanın əsl niyyətini üzə çıxardı. Matinyon Sazişi dekolonizasiyaya deyil, kolonial nəzarəti möhkəmləndirməyə xidmət etmiş oldu.

### Numea Sazişi (1998): saxtalaşdırılmış seçkilər

1998-ci ildə imzalanmış Numea Sazişi 2018–2022-ci illər arasında üç müstəqillik referendumunu nəzərdə tutaraq Yeni Kaledoniyanın dekolonizasiya olunması üçün yeni fürsət kimi təqdim edilirdi. Fransa səsverməni keçirdi. Kanakların kütləvi boykotu ilə nəticələnən referendumun nəticəsi Fransanın tərkibində qalmaq istiqamətində oldu.

### Bujival Sazişi: müstəqilliyə yeni maneə

Bujival sazişi Fransanın müstəmləkəçi strategiyasının növbəti mərhələsini təşkil edir. Fransa dekolonizasiya prosesini başlatmaq əvəzinə, uydurulmuş Yeni Kaledoniya dövləti modelini irəli sürür. Bu layihə Yeni Kaledoniyanı Fransanın tərkibində saxlamaqdır.

***XQ***

*Baxış bucağı*

# Bir müsahibənin əks-sədası

## Rusiyadan başlayan informasiya hücumu

**Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibə yalnız regionda deyil, beynəlxalq mediada da geniş rezonans doğurdu. Dövlət başçısı bu çıxışında Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıqları, xüsusilə Zəngəzur dəhlizinin regional iqtisadi əməkdaşlıq və kommunikasiya baxımından əhəmiyyətini vurğuladı.**



**Elnarə AKİMOVA,**
**Milli Məclisin deputatı,**
**filologiya elmləri doktoru**

Müsahibə Azərbaycanın sülhə, əməkdaşlığa və çoxtərəfli əlaqələrin inkişafına açıq dövlət olduğunu göstərən mühüm siyasi mesaj kimi qəbul edildi. Lakin dərhal sonra, avqustun 27-dən etibarən Rusiya Federasiyası ərazisindən Azərbaycan əleyhinə kütləvi informasiya kampaniyasının başladığı müşahidə olundu.

Milli Məclisin Xarici Müdaxilələrə və Hibrid Təhdidlərə qarşı Komissiyasının bu gün paylaşılan bəyanatında bildirilir ki, kampaniya əsasən sosial media platformalarında, bəzi televiziya kanallarında və xəbər portallarında aparılıb. Prezidentin Zəngəzur dəhlizi ilə bağlı tarixi faktlara söykənən cavabı kontekstdən çıxarılaraq təhrif olunmuş formada Rusiya auditoriyasına təqdim edilib.

Məqsəd isə aydındır: Azərbaycanı əsassız şəkildə təcavüzkar və ya regionda gərginlik yaradan tərəf kimi qələmə vermək, Rusiya ictimaiyyətində anti-Azərbaycan əhvali-ruhiyyəsi formalaşdırmaq. Bu prosesdə Rusiya ərazisində qadağan olunmuş "Facebook", "Instagram" və "X" kimi platformalardan, eləcə də saxta sosial media profillərindən və bot şəbəkələrindən geniş istifadə olunub.

Diqqətçəkən digər məqam isə Azərbaycanın sosial media seqmentinə hədəfli reklamlar vasitəsilə təxribat xarakterli məlumatların yerləşdirilməsi olub. Bu, hibrid müharibənin tipik üsullarından biridir və məqsəd informasiya məkanında çaşqınlıq yaratmaq, ictimai rəyi manipulyasiya etməkdir.

Azərbaycan tərəfi təxribatçı kampaniyanın qarşısını almaq üçün dərhal hərəkətə keçdi. Milli Məclisin müvafiq Komissiyası bəyanatla çıxış edərək, bu cür informasiyaların heç bir real təsir gücünə malik olmadığını, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı məsələlərin müzakirə predmeti olmadığını vurğuladı.

Eyni zamanda aidiyyəti dövlət qurumları, o cümlədən media və kibertəhlükəsizlik strukturları koordinasiyalı şəkildə fəaliyyət göstərərək saxta profillərin və təxribatçı kontentin yayılmasının qarşısını almaq üçün praktiki addımlar atmağa başladı.

Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına müsahibəsi regionda yeni əməkdaşlıq mərhələsinə keçidin anonsu idi. Müsahibə Azərbaycanın geosiyasi vizyonunu dəqiq ortaya qoyur: Zəngəzur dəhlizi yalnız Azərbaycanın iki hissəsini birləşdirməklə kifayətlənmir, həm də Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üçün yeni imkanlar açır. "Tramp marşrutu" və Araz dəhlizi kimi layihələr Azərbaycanın regional tranzit potensialını gücləndirir və iqtisadi inteqrasiyanı təşviq edir. Burada diqqətçəkən məqam Azərbaycanın layihələrin təhlükəsizliyinə və beynəlxalq zəmanətlərinə verdiyi önəmdir, bu da layihələrin yalnız texniki, deyil, siyasi və diplomatik aspektlərini də əhatə edir.

Ölkə başçısının müsahibəsində vurğulandığı kimi, Rusiya ilə əlaqələrdə isə mülki təyyarənin vurulması və bununla bağlı hadisələr Azərbaycanın beynəlxalq hüquqa, həmçinin öz vətəndaşlarının təhlükəsizliyinə önəm verdiyini göstərir. İlham Əliyev açıq şəkildə bildirir ki, Azərbaycan təcavüzkar siyasət yürütmür, lakin öz ərazi bütövlüyünü və vətəndaşlarını qorumaq gücünə malikdir.

Bu gün Azərbaycan artıq post-münaqişə dövründə Cənubi Qafqazın iqtisadi və nəqliyyat xəritəsini müəyyən edən əsas aktorlardan biridir. Bu reallıq bəzi qüvvələr tərəfindən qıcıqla qarşılanır. Xüsusilə Zəngəzur dəhlizi kimi layihələr yalnız Azərbaycan və Türkiyə üçün deyil, bütövlükdə region üçün mühüm strateji əhəmiyyət daşıyır. Bu layihələrin reallaşması isə Cənubi Qafqazda tamamilə yeni geosiyasi balans yaradır.

Məhz buna görə, müəyyən mərkəzlər Azərbaycanın mövqeyini sarsıtmaq, beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür formalaşdırmaq üçün informasiya hücumlarından istifadə edirlər.

Son hadisələr bir daha göstərdi ki, müasir dünyada informasiya təhlükəsizliyi ən azı hərbi və iqtisadi təhlükəsizlik qədər vacibdir. Azərbaycan dövləti isə həm diplomatik, həm də texnoloji müstəvidə bu cür təhdidlərə qarşı kifayət qədər hazırlıqlı olduğunu nümayiş etdirdi.

Prezident İlham Əliyevin müsahibəsi ölkəmizin qlobal miqyasda sülh və əməkdaşlıq çağırışlarını, regional inkişaf modelini bir daha gündəmə gətirdi. Eyni zamanda, Azərbaycan cəmiyyəti və dövlət institutları göstərdi ki, informasiya müstəvisində aparılan heç bir kampaniya ölkəmizin milli maraqlarına zərbə vura bilməz.

# Çin, ŞƏT və Yeni dünya düzənində Azərbaycan amili

(əvvəli 1-ci səhifədə)

Hələlik onu bildirək ki, ŞƏT-in 25-ci sammiti yeni dövrün qloballaşma arxitekturası baxımından son dərəcə böyük əhəmiyyət daşıdı. Toplantı dünyaya Çinin hegemon rolunu göstərdi. Parad isə sanki son nöqtəni qoydu. Nəzərə alaq ki, sammitə parad möhürünün vurulması bir çox mətləblərdən xəbər verir. Hər halda, tarixə nəzər salsaq, Çinin İkinci Dünya müharibəsindəki qələbədə pay nisbətini o qədər də yüksək saymaq olmaz. Deməli, onun qələbə paradı iddiasında fərqli məqamlar var. Hansı məqamlar, fikrimizi ən sonda açıqlayacağıq.

Bəli, ŞƏT-in 25-ci sammiti Çinin yeni dünya düzənindəki rolunun parlaq təzahür təntənəsi kimi yadda qaldı. Amma ölkənin hegemonluq nümayişi sözügedən deyimin klassik formalarına əsaslanmayan trayektoriyadır. Pekin, mahiyyətcə, çoxqütblülüyün hegemoniyasını təbliğ edir. Mövcud təbliğat öncüllük amilini demarşda yox, əməkdaşlıqda və əməkdaşlığın təşviqində görür, tələb və təklif mühitində rəqabət üstünlüyü doktrinasını irəli sürür, təşəbbüskarlığı və ümumi işə töhfəni yüksək qiymətləndirir.



Deməli, siyasətdə və iqtisadiyyatda yeni forma və metodlar, o cümlədən, əsaslı struktur dəyişiklikləri labüddür. Bu, həm də İkinci Dünya müharibəsindən sonra formalaşmış qlobal nizamın ciddi dəyişikliklərə uğraması deməkdir. O nizam ki, yaradıcısı Qərb və keçmiş SSRİ idi. İndi Qərb var, ancaq Çinlə müqayisədə iflic durumdadır. SSRİ yoxdur, onun yerindəki Rusiya barədə danışarkən, ölkə Prezidenti Vladimir Putinin ŞƏT kluarlarında necə qarşılanmasına diqqət yetirmək kifayətdir. Hər halda, ortada Rusiya adına xoş olmayan mənzərə var.

Əlqərəz, Çin hegemonluğun klassik təzahürləri, habelə İkinci Dünya müharibəsindən sonra formalaşmış blok qarşıdurması trayektoriyasına alternativ düzən irəli sürür. Bu düzənin məğzində dayanan başlıca güc ölkənin iqtisadi potensialıdır. Hazırda bütün dünya Çin iqtisadiyyatının məhsullarına ehtiyac duyur və onların ixracatçısıdır. Ölkənin iqtisadiyyatı isə günü-gündən böyüyür və inkişaf edir. Belə bir durumda Çin mallarının bazarlara çıxmasında ay, gün, saat yox, bəzən dəqiqə amili də müstəsna önəm daşıyır. Deməli, istər-istəməz, Çin özü də ixraca yönəlik iqtisadiyyatının partnyor ölkələr vasitəsilə zəncirvari strukturunda maraqlıdır. Mövcud düzəndəki hegemonluq isə həmin struktura nəzarətin həyata keçirilməsidir. Yəni, hər kəs öz missiyasını dəqiq yerinə yetirməlidir. Pekin başqa heç nə tələb etmir və onun hegemonluğunu fərqləndirən başlıca xüsusiyyət həm də budur.

Çin real sektorların bir-birinə inteqrasiyasını əsas götürür. Ölkə maliyyəni deyil, onu əldə etmək vasitələrini düşünür. Halbuki, Qərb yanaşması tamamilə fərqlidir. Nəzərə alaq ki, Qərb ölkələrində iqtisadiyyat, başlıca olaraq, yalnız maliyyə kapitalı üzərinə formalaşmış platformadır. Ona görə hazırda Çinin tətbiq etdiyi model qarşısında uduzur. Bilavasitə real sektorların inteqrasiyasına gəldikdə, ilk olaraq, qlobal logistika zəncirlərini vurğulamaq lazımdır. Bu baxımdan ön plana çıxan COSCO (China Ocean Shipping Company), yəni Çin Okean Gəmiçilik Şirkətidir.

Nəzərə alaq ki, şirkət dünyanın ən böyük dəniz daşıma və logistika qurumlarından biridir və yalnız konteyner daşıma, tanker və quru yük gəmiləri ilə beynəlxalq yükdaşıma xidmətləri göstərməklə, yüzlərlə gəmini idarə etməklə, dünyanın əsas limanları ilə əlaqə saxlamaqla kifayətlənmir, paralel surətdə, logistika və təchizat zənciri xidmətləri həyata keçirir. Bura anbar xidməti, multimodal daşımalar (dəniz, dəmir yolu, avtomobil), gömrük xidmətləri və təchizat zəncirinin idarə olunması sahələrində də fəaliyyət daxildir. Dövlət şirkəti olan COSCO-nun işinin strateji əhəmiyyətinə gəldikdə isə qurum Çin hökumətinin “Bir Kəmər, Bir Yol” (Belt and Road Initiative) təşəbbüsünün əsas iştirakçılarından biridir və rəsmi Pekinin beynəlxalq ticarət və nəqliyyat strategiyalarında böyük rol oynayır.

Əlbəttə, Çinin real sektorların inteqrasiyası iqtisadi düzənində rəqəmsal platformalar, telekommunikasiya infrastrukturu və istehlak malları xüsusi rol oynamaqdadır. Nəticə etibarilə, rəsmi Pekin həyata keçirdiyi kursla xeyli sayda ölkənin maraqlarını öz iqtisadiyyatı ilə birləşdirmək imkanı əldə edir. Zəncirvari struktur və haqqında söz açdığımız real sektorların inteqrasiyanın daha bir təzahürü məhz budur. Amma mövcud inteqrasiya bərabərtərəflidir. Saat mexanizminə əsaslanmış bu sistemdə təşəbbüskar tərəf həm də güclü mövqeyə sahib tərəfdir. Çin mərkəzi fiqur kimi həmin tərəfin maraq və mənafelərini daha çox nəzərə alır. Necə deyərlər, çox işləyən, çox da qazanmalıdır.

Digər tərəfdən, Çinin təklif etdiyi sistem xarici aləmin İkinci Dünya müharibəsindən sonra formalaşmış ikiqütblü, SSRİ-nin dağılması ilə yaranmış təkqütblü dünya düzəninə antipatiyası fonunda meydana çıxmış çoxqütblü dünya modelidir. Nəzərə alaq ki, Çin, mahiyyət və təbiət etibarilə, imperialist maraqlar güdmür. Ona görə də onun təklif etdiyi platformada hərbi ittifaq anlayışı yoxdur. Burada münasibətləri müəyyənləşdirən başlıca meyar iqtisadiyyat və onun təhlükəsizliyi, infrastruktur üzərində qurulmuş strateji çərçivədir. Bu çərçivənin özü də Qərb institutlarına alternativ qismində çıxış etməkdədir. Deməli, sistem özündə dünyanı iqtisadi vasitələrlə çalxalamaq cəhdlərinə qarşı da immunitet formalaşdırır. Belə bir durumda dominant valyuta olaraq dolların zəifləməsi perspektivi var. Çünki bir sıra ekspertlər Çinin təklif etdiyi sistemin çoxvalyutalı strukturundan söz açırlar. Bu isə öz növbəsində partnyor ölkələrin pul vahidlərinin dayanıqlılıq təminatıdır.

***

Yazımızın ikinci hissəsinə keçid alaq. Əvvəlcə bildirək ki, ŞƏT çərçivəsində Çinin təklif etdiyi düzən Qlobal Cənub kimi böyük mahiyyətə malikdir. Qlobal Cənub isə Qərbə alternativ sistemdir. İlk baxışdan, Çin-Rusiya-Hindistan üçbucağı bu sistemin qarantı rolunda çıxış edə bilər. Ancaq məsələ son dərəcə nəzəridir. Çünki Çin-Hindistan rəqabəti var. Üstəlik, bilavasitə imperiya ambisiyalı Rusiyaya etimad yoxdur. Mövcud durumda Qlobal Cənub üçün başlıca qarant rolunda çıxış edən tərəflərdən biri Türkiyədir.

Türkiyə özlüyündə çoxqütblü mürəkkəbliyin nümunəsi rolunda çıxış etməkdədir və xüsusi missiya daşıyır. Nəzərə alaq ki, qardaş ölkə NATO üzvü olmaqla yanaşı, həm də ŞƏT-lə tərəfdaşlığını dərinləşdirir. Deməli, Ankaranın indiki durumda manevr kimi həyata keçirdiyi siyasət əslində, düşünülmüş mahiyyətə malikdir və onun konkret regional hədəfləri var. Ankaranın Bakı ilə müştərək hərəkət etdiyini isə vurğulamağa ehtiyac yoxdur.

Amma məsələni Azərbaycanın Türkiyə ilə maraqlarının uzlaşması kontekstində qoymaq daha doğrudur. Çünki ölkəmiz Prezident İlham Əliyevin şəxsində özünün məxsusi gündəliyinə malikdir. Bu gündəlik onu deməyə əsas verir ki, Azərbaycan Çinin Qlobal Cənub siyasi-iqtisadi infrastrukturunda və “Bir Kəmər, Bir Yol”unda yalnız tranzit məmləkət statusu ilə məhdudlaşmayacaq. Ölkəmiz qlobal kommunikasiya habına həm də töhfə verən tərəfdir və bu, son dərəcə vacib məqamdır. Loru dildə desək, pul xərcləməlisən ki, onu qazana biləsən.

Əlbəttə, Azərbaycanla Çin arasında bu il aprelin 25-də imzalanmış “Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələrinin Qurulması Haqqında Birgə Bəyanat” kimi mötəbər sənəd var. Kifayət qədər əhatəli və Azərbaycan-Çin münasibətlərinin bütün spektrini özündə birləşdirən, Çinin ölkəmizin ŞƏT-ə üzvlüyünə dəstək mahiyyəti daşıyan həmin sənəddə Çin–Avropa–Çin transxəzər ekspress-marşrutlarının yaradılması, gömrük rəsmiləşdirilməsinin rahatlıq səviyyəsinin və yük daşımalarının səmərəliliyinin ardıcıl şəkildə artırılması məqsədilə Azərbaycan və marşrut boyunca yerləşən digər ölkələrlə əməkdaşlıq məsələləri əksini tapıb. Bəyanatda, həmçinin, hər iki tərəfin beynəlxalq avtomobil daşımaları üzrə hökumətlərarası sazişin razılaşdırılmasının və bağlanmasının sürətlənməsində, qarşılıqlı avtomobil daşımaları üçün əlverişli şəraitin gücləndirilməsində, ikitərəfli ticari-iqtisadi əməkdaşlıq üçün dayaqların yaradılmasında maraqlı olduqları açıqlanıb. Bu yerdə Prezident İlham Əliyevin aprelin 25-də Pekində Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsindəki bəzi fikirləri diqqətə çatdırmaq istərdik. Həm də ona görə ki, böyük siyasətdə bir çox məsələləri şəxsi münasibətlər həll edir. Bu mənada dövlətimizin başçısının Çin Xalq Respublikasının sədri Si Cinpin ilə münasibətləri yalnız qibtəyə layiqdir: “Bizim çox mehriban münasibətlərimiz var. Görüşlərin birində o, məni Çinin yaxın dostu adlandırıb. Bunu mən bir növ mükafat kimi qəbul edirəm. Onunla görüşməyə, çox səmimi və açıq qaydada söhbət aparmağa hər zaman məmnunam. Biz danışıqlar zamanı çox vaxt bir yerdə olmuşuq, sonra rəsmi ziyafət zamanı söhbət etmişik. Bir sözlə, regional sabitlik, təhlükəsizlik və beynəlxalq münasibətlərin bir çox sahəsini əhatə etmişik. Müxtəlif məsələlər ətrafında öz aramızda fikir mübadiləsi apardığımız zaman mənim üçün onun mövqeyini bilmək hər zaman vacibdir, çünki o, çox təcrübəli dövlət xadimidir. Ona böyük hörmətim var. O, çox dərin biliklərə malik olan, Çinin milli maraqlarına və bütövlükdə qlobal məsələlərə gəldikdə, çox qətiyyətli mövqeyi ilə seçilən insandır. Bildiyiniz kimi, Azərbaycan Sədr Cinpin inkişaf, təhlükəsizlik və sivilizasiyalar ilə bağlı bir neçə təşəbbüsünə qoşulub. Biz onun mövqeyinə şərikik. “Bir kəmər, bir yol” təşəbbüsünü açıq şəkildə dəstəkləmiş və sonradan qoşulmuş ilk ölkələrdən biri də bizik və öz ölkəmizdə xeyli infrastruktur layihələrini həyata keçirmişik”.

Bilavasitə “Bir kəmər, bir yol” layihəsinə gəlincə, az əvvəl ölkəmizin qlobal kommunikasiya xabında yalnız tranzit məmləkətə çevrilməklə kifatyətlənmədiyini vurğuladıq və hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi fəaliyyət, o cümlədən, Zəngəzur dəhlizinin reallaşmasına yönələn işlər, ümumən isə işğaldan azad edilmiş torpaqlarda gerçəkləşdirilən genişmiqyaslı tədbirlər onu deməyə əsas verir ki, Bakı öz məqsəd və məramını xeyli geniş götürməkdədir. Əslində, Prezident İlham Əliyev CGTN telekanalına müsahibəsində də bunu vurğulamışdı. Nəzərə alaq ki, dövlətimizin başçısı fikirlərini məhz “Bir kəmər, bir yol” layihəsi xüsusunda açıqlamışdı: “Bizim üçün bu təşəbbüs yalnız bir tranzit marşrutu deyil. Biz bu marşrut üzərində şirkətlər qurmaq istəyirik, çünki bizim coğrafi mövqeyimiz əlverişlidir. Biz Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri üzərində yerləşirik. Bağlantılara gəlincə, biz artıq bütün infrastrukturu - dəmir yollarını, dəniz limanlarını, magistral yolları, 8 beynəlxalq hava limanı inşa etmişik. Biz qlobal miqyasda ən böyük yükdaşıma, hava yolu ilə yükdaşıma şirkətlərindən birinə sahibik. Beləliklə, hədəfimiz bu marşrut üzərində biznes qurmaqdır. Əlbəttə ki, biz Çin şirkətlərinə arxalanırıq. Cəmi bir həftədən də az vaxt bundan əvvəl biznes-forumda hər iki ölkədən müxtəlif şirkətlər iştirak edirdilər, onlar Azərbaycana 300 milyon dollardan artıq həcmdə investisiya yatırılmasına dair sazişlər imzaladılar. Bu gün mən həmkarlarıma söylədim ki, bu, bizim üçün yaxşı göstəricidir. Lakin düşünürəm ki, bu göstərici daha böyük ola bilər”.

***

Sonda ümumiləşdirmə apararaq, belə qənaətə gələ bilərik ki, ŞƏT-in 25-ci sammitinin Çinin hegemon mövqeyini vurğulayan ab-havası və bu ab-havanın açıqladığımız ayrı-ayrı paramentrləri fonunda Azərbaycanın Pekinin egidası altında formalaşan yeni dünya nizamındakı iştirakçılığı, kifayət qədər, məqsədyönlüdür, dövlətimizin və xalqımızın maraq və mənafelərinin daha qətiyyətli şəkildə müdafiəsi, habelə yaşadığımız Cənubi Qafqaz regionunun rifahı, onun müstəqil siyasi və iqtisadi orqanizm kimi özünü təsdiqləməsi naminə son dərəcə ciddi təminatdır. Heş şübhəsiz, belə bir təminatın mövcudluğu da Azərbaycanın böyük xarici siyasət uğurudur.

Ən sonda yenə Pekində təşkil edilmiş təntənəli parada qayıdaq. Əlbəttə, parad Çinin hərbi qüdrətinin təzahürüdür və onun nümayişə çıxarılmasında müəyyən siyasi subliminalizm notları var. Onu da bildirdik ki, ümumi tarixşünaslıq Çinin İkinci Dünya müharibəsindəki qələbədə olan payını bir o qədər yüksək qiymətləndirmir. Ancaq hazırda ölkə özünün ən yüksək səviyyəsindədir və onun ŞƏT və digər beynəlxalq platformalarda irəli sürdüyü prinsiplər və həmin prinsiplərə əsasən gerçəkləşdirdiyi fəaliyyət, ortaya qoyduğu yüksək performans əsl qələbə nümunəsidir. Bu qələbə ilə Çin İkinci Dünya müharibəsindən sonra qərarlaşmış siyasi və iqtisadi düzən üzərində də zəfər çaldığını göstərir və əslində, yeni eraya start verildiyi sübuta yetirir. Söhbət Pekinin hakim rol oynadığı və forma və məzmununu açıqladığımız yeni eradan gedir. Hesab edirik parad da məhz yeni eradakı Çin təntənəsinin təzahürü kimi qiymətləndirilə bilər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Əgər “snapback” mexanizmi işə salınsa...

## *Tehran JCPOA üzrə dialoqa açıqdır, amma təhdid altında bu prosesə getməyəcək*

**İranın nüvə proqramı beynəlxalq siyasətdə uzun illərdir müzakirə mövzusudur. Rəsmi Tehrana görə, onların bu fəaliyyəti sırf dinc məqsədlərlə bağlıdır. Əsasən enerji istehsalı və tibbi tədqiqatlar üçün nəzərdə tutulduğu qeyd olunur. Lakin Qərb dövlətləri, xüsusilə ABŞ, Fransa, Almaniya və Böyük Britaniya bu proqramın hərbi istiqamətə yönələ biləcəyindən narahatlıq ifadə edirlər.**

2000-ci illərin ortalarından etibarən ABŞ və Avropa ölkələri İranın uranı zənginləşdirmə səylərinə qarşı sərt sanksiyalar tətbiq etmişdi. 2015-ci ildə imzalanmış Birgə Hərtərəfli Fəaliyyət Planı (JCPOA) bu gərginliyi müəyyən qədər azaltsa da, 2018-ci ildə ABŞ-ın Donald Trampın rəhbərliyi ilə sazişdən çıxması vəziyyəti yenidən gərginləşdirdi. Ardınca İran 2019-cu ildən nüvə öhdəliklərini mərhələli şəkildə dayandırdı, uran istehsalını artırdı və zənginləşdirməni 60 faizə qədər yüksəltdi. Bayden administrasiyası 2021-2022-ci illərdə sazişə qayıtmaq niyyəti nümayiş etdirsə də, İran 2022-ci ildə təqdim edilən kompromis paketlərini qəbul etmədi. E3 dövlətləri buna cavab olaraq, JCPOA çərçivəsində nəzərdə tutulmuş sanksiyaları Avropa İttifaqı və Böyük Britaniya qanunvericiliklərində qüvvədə saxlayıblar.

Digər tərəfdən, İran öz mövqeyində qalaraq nüvə silahı istehsal etmək niyyətində olmadığını, nüvə proqramının beynəlxalq nəzarət altında olduğunu bildirir. Tehran hesab edir ki, nüvə sahəsində fəaliyyətinə qarşı tətbiq edilən məhdudiyyətlər onun suveren hüquqlarını pozur. Yaranmış gərginlik fonunda İranla İsrail arasında da ciddi qarşıdurmalar baş verdi. Xüsusilə İranın nüvə fəaliyyətləri iki ölkə arasında hərbi toqquşmalara gətirib çıxardı. Bu il 13-24 iyun tarixlərində Tehran və Təl-Əviv arasında baş vermiş 12 günlük müharibə məhz bu mübahisələrin regional təhlükəsizlik baxımından nə qədər ciddi olduğunu göstərdi. Baş vermiş silahlı münaqişə təkcə İran və İsraillə məhdudlaşmadı. “Səma müharibəsi” kimi tarixə keçən döyüşlərin sonlarına yaxın ABŞ İranın üç nüvə obyektinə zərbələr endirdi.



Ötən günlərdə ABŞ Prezidenti Donald Tramp amerikalı jurnalist Mark Levinə müsahibəsində İranın nüvə obyektlərinə endirilən zərbələri şərh edib. Donald Tramp hesab edir ki, İranın nüvə obyektlərini bombalanmasaydı, Tehran bir aya nüvə silahını əldə edə bilərdi. “Hesab edirəm ki, onlar dörd həftə ərzində nüvə silahı əldə edəcəkdilər”, – deyə ABŞ lideri vurğulayıb.

Qeyd olunduğu kimi, İranın uranı zənginləşdirmə planında ona mane olmaq istəyən “E3”-ə Almaniya, Fransa və Böyük Britaniya daxildir. Bu günlərdə “üçlük” Vyana Nüvə Sazişi üzrə “snapback” (sanksiyaların avtomatik bərpası) mexanizmini işə salıblar. Almaniya Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, bu addımın səbəbi kimi İranın uzun müddət ərzində üzərinə götürdüyü öhdəlikləri sistemli şəkildə pozması göstərilir. Qaydalara əsasən, 30 gün ərzində diplomatik həll yolu tapılmasa, BMT Təhlükəsizlik Şurasının İranla bağlı sanksiyaları yenidən qüvvəyə minəcək. Bunun nəticəsində Tehrana nüvə və raket texnologiyaları ilə əlaqəli məhsulların ötürülməsi qadağan olunacaq, həmçinin silah embarqosu bərpa ediləcək.

Bu arada İranın BMT-dəki daimi nümayəndəsi Əmir Səid İrəvani bildirib ki, Tehran JCPOA üzrə səmimi danışıqlara açıqdır, lakin “qeyri-real ilkin şərtlər” və təhdid altında bu prosesə qoşulmayacaq. Buna görə də Avropa üçlüyünün (Böyük Britaniya, Almaniya, Fransa) planı rədd olunub. Əvəzində İran Rusiya və Çinin BMT-nin 2231 saylı qətnaməsinin müddətinin texniki olaraq qısamüddətli uzadılması təklifini dəstəkləyib. İrəvani Avropa ölkələrinin mövqeyini “ikiüzlü addım” və “təxribatçı eskalasiya” adlandıraraq bunun BAEA ilə əməkdaşlığa zərər verdiyini deyib.

**Mövzu ilə bağlı politoloq Tural İsmayılov XQ-yə açıqlamasında bildirdi ki, E3 ölkələrinin JCPOA çərçivəsində “snapback” mexanizmini işə salması İran üçün həm siyasi, həm də iqtisadi baxımdan ciddi nəticələr doğura bilər:** “Bu qərar uzun müddət yığılıb qalmış narazılıqların kulminasiya nöqtəsidir və Tehran üçün diplomatik manevr imkanlarını daraldır. Əgər 30 gün ərzində həll yolu tapılmasa, BMT sanksiyaları bərpa olunacaq və İran yenidən beynəlxalq izolyasiya ilə üzləşəcək. Siyasi baxımdan bu mexanizm İranın nüvə proqramı ilə bağlı legitimlik platformasını sarsıdır. Tehran saziş tərəfdarı imicini qorumağa çalışsa da, E3 ölkələrinin addımı Qərbin vahid mövqeyini göstərir. Sanksiyaların bərpası İranı beynəlxalq hüquqda “öhdəlikləri pozan” ölkə kimi qeyd edəcək ki, bu da diplomatik münasibətləri ABŞ və Avropa ilə gərginləşdirəcək”.



T.İsmayılov sözlərinə onu da əlavə etdi ki, iqtisadi baxımdan nəticələr daha ağır ola bilər. Onun sözlərinə görə, sanksiyaların bərpası İranın neft və qaz ixracına məhdudiyyət gətirəcək, Avropa və Asiya bazarlarında əlaqələri daraldacaq: “Silah embarqosu isə hərbi texnologiyalara çıxışı məhdudlaşdıracaq və Yaxın Şərqdə regional təsirini zəiflədəcək. Tehran qeyri-leqal kanallara yönəlməyə məcbur olacaq ki, bu da xərcləri artıracaq və riskləri yüksəldəcək. Daxili siyasət baxımından sanksiyalar sosial-iqtisadi narazılıqları gücləndirə bilər, çünki İran artıq inflyasiya, işsizlik və valyuta çatışmazlığı ilə üzləşib. Bütün bunların fonunda İranın Çin və Rusiya ilə yaxınlaşması sürətlənə bilər, alternativ kanalları ŞƏT və BRIKS kimi platformalarda axtaracaq”.

***M.BAĞIRLI***
***XQ.***

# Liderin regional və qlobal siyasətə baxışları



## III MƏQALƏ

### Türk dünyası

Azərbaycan Prezidentinin hər bir termini dəqiq siyasi-ideoloji anlamda işlətdiyi hər kəsə məlumdur. Yeri gələndə incə diplomatiya ilə bu vacib məqamı ünsiyyətdə olduğu auditoriyaya anladır. Son zamanlar bir sıra dairələrdə “Türkdilli dövlətlər təşkilatı” kimi qeyri-müəyyən ifadədən istifadə etmək halları artmışdır. Özü də bunu bir sıra məqamlarda elə kontekstdə təqdim etməyə çalışırlar ki, Türk dövlətləri deyil, türkdilli dövlətlər vardır. Yəni millətin etnik mənsubluğu ayrıdır, ancaq danışdığı dil türkcədir. Bu absurd və heç bir elmi, tarixi, mədəni əsası olmayan cəfəngiyyata, əlbəttə, cavab verilməlidir. Lakin səbir, təmkin və terminləri dəqiq işlətməklə. “Əl-Ərəbiyyə”nin müxbiri də son sualında bilərəkdən və ya bilməyərəkdən “Türkdilli dövlətlər arasında Azərbaycan” ifadəsini işlətmişdir.

Azərbaycan Prezidenti çox sakit, təmkinli və dəqiq ifadələrlə məsələnin düzgün qoyuluşunu əks etdirən tezislər irəli sürmüşdür. Faktiki olaraq, Prezident İlham Əliyev növbəti dəfə “Türk dünyası” anlayışını düzgün məntiqi və ədalətli yanaşma ilə izah etmişdir. Ölkə rəhbəri sözlərinə belə başlamışdır: “Türk Dövlətləri Təşkilatı hazırda böyük potensiala malikdir. Azərbaycan daim bu qurumu gücləndirməyə sadiq olub. Bu, bir növ məşvərətçi qrup, şura, ölkələr qrupu kimi fəaliyyətə başlayıb, sonra isə transformasiya edib. O, böyük potensiala malikdir”.

### Çox vacib yanaşma incəliyi

Birincisi, Türk dövlətləri arasında münasibətlərin dəqiq və konkret tarixi, siyasi, coğrafi, mədəni, iqtisadi və geosiyasi parametrləri vardır. Onların təməlində “Türk dünyası” anlayışı dayanır. Türk dövlətləri arasında münasibətlərdə dil, təbii ki, birləşdirici rol oynayır. Ancaq məsələnin təbii və gerçək kökü tarix boyu Türk dünyasının mövcud olması ilə bağlıdır və bu anlamda dil onun yalnız bir elementidir.

Türk dövlətlərinin münasibətlərinə bu cür yanaşma bütün mənalarda düzgün və ədalətlidir. Burada hər şeydən öncə Türk dünyasının artıq özünüdərk mərhələsinə siyasi, geosiyasi, ideoloji, mənəvi və mədəni aspektlərdə keçdiyi qəbul edilməlidir. Türk dövlətləri (Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Türkiyə) TDT-yə məhz bu baza anlam fonunda qiymət verirlər. Məhz bu cür əsaslı yanaşmaya görə TDT hazırda böyük potensiala malikdir.

İkincisi, Prezident İlham Əliyev vurğuladığı yanaşma çərçivəsində Türk Dövlətləri Təşkilatının strateji təşkilatlanma xəttini dəqiq xarakterizə etmişdir. Azərbaycan lideri ifadə edir ki, Türk dövlətləri təkamül, ədalət, hüquqla münasibətlərini tədrici olaraq inkişaf etdirməkdədirlər. Yəni eyni etnik kökə malik olmaq faktında süni, tələsik və müasir dünyanın xüsusiyyətlərini nəzərə almadan türklər hərəkət etmirlər. Buna görədir ki, İlham Əliyev TDT-nin “məşvərətçi qrup, şura, ölkələr qrupu” kimi transformasiyasını yığcam ifadə etmişdir. Məlumdur ki, beynəlxalq səviyyədə və dövlətlərarası münasibətlərdə vurğulanan təşkilati formaların fərqli funksiyaları mövcuddur. Məsələn, dövlətlərin məşvərətçi qrup kimi münasibətləri ölkələr qrupu olaraq siyasi təşkilatdakı münasibətlərindən çox məhduddur. Məşvərətçi qrupun qəbul etdiyi qərarların hüquqi və siyasi statusu da fərqlidir. Lakin türklər tələsmədən və tam sağlam baza hazırlamadan qəfil yüksək siyasi təşkilatlanmaya keçmədilər. Türk xalqlarının müdrik liderləri (öndə Heydər Əliyev olmaqla) tədrici və real transformasiyalarla Türk dünyası dövlətlərini inteqrasiya xəttinə çıxardılar. İndi bu anlamda TDT elə səviyyədədir ki, böyük inkişaf potensialına malikdir.

### Türk dünyasının Azərbaycan fenomeni

Üçüncüsü, dövlət başçısı bir tezisi ilə Azərbaycan Respublikası toplumu və siyasi rəhbərliyinin türk dövlətləri arasında münasibətlərin XXI əsrdə dinamikasında tutduğu yeri və oynadığı rolu dəqiq ifadə etmişdir – “Azərbaycan daim bu qurumu gücləndirməyə sadiq olub”. Azərbaycan lideri türk dünyası haqqında baxışlarını yığcam ifadə edəndən sonra, onun bir parçası olan Azərbaycanın dövlət kimi fəaliyyətini obyektiv və konkret söyləmişdir.

Yəni birincisi, Azərbaycan tarixi ədalətə və gerçəkliyə əsaslanaraq qətiyyətlə türk dövlətlərinin inteqrasiyasına üstünlük verir, ikincisi, Azərbayan dövlətinin başçısı bəyan edir ki, ölkənin TDT-dəki bu missiyasına həmişə sadiqliyi olmuşdur və bundan sonra da olacaqdır. Çox güclü və həqiqəti ifadə edən tezisdir. Bunu həm ölkə daxilində, həm TDT-də, həm də bütün dünyada hər kəs artıq birmənalı anlamalıdır. Bu həqiqəti və gerçəkliyi ədalətli və obyektiv tarixi fakt kimi “qulaqlarına sırğa” etməlidirlər.

Həm cəmiyyətimizdə, həm də dünyada Azərbaycan fenomeninin bu məsuliyyəti tam dərk edərək fəaliyyət göstərdiyini kimsə inkar edə bilməz. Tarix göstərir ki, türk ölkələri, cəmiyyətləri və dövlətləri arasında ən güclü inteqrasiya ideyasının coğrafi, siyasi, geosiyasi və mədəni məkanı Azərbaycan olmuşdur! Bu fenomenin qiymətini yalnız türklər deyil, regionumuz və bütövlükdə dünya bilməlidir!

Bundan sonra Azərbaycan Prezidenti Türk dünyasının bir sıra xüsusiyyətlərini ifadə edir ki, bu əsasda ayrı-ayrılıqda türk dövlətləri ilə Azərbaycanın münasibətlərinin xarakteristikasına baş vurmaq baxımından gözəl əsas yaranır.

### Türk birliyinin nadirliyi

Dördüncüsü, dövlət başçısı belə bir fikir ifadə etmişdir: “Bizi köklərimiz birləşdirir və bu, təşkilatı nadir edir. Çünki digər beynəlxalq təşkilatlara baxsaq, onların hamısını deyil, bəlkə də bir qismini ortaq etnik qrup birləşdirir. Bəli, biz müxtəlif xalqlarıq, amma hamımızın kökləri ortaqdır və bu, türk etnik mənsubiyyətimizdən irəli gəlir”.

Dahiyanə fikirdir. Hər şeydən öncə, Türk dünyasının bünövrəsini türk etnik mənsubluğu təşkil edir. Sonra müasir mərhələdə artıq sosial, mədəni və siyasi fərqlilikləri olan türk xalqları formalaşmışdır. Bu baxımdan, onları bütün parametrlər üzrə eyniləşdirmək olmaz və buna türk qövmünün ehtiyacı da yoxdur. Çünki məhz bu rəngarənglik Türk dünyasını dünyanın ən potensiallı və perspektivli inteqrasiya məkanına çevirə bilər. Türklər müasir dünya tarixində real, qalıcı və faydalı inteqrasiya nümunəsi ortaya qola biləcək tarixi-mədəni-sivil-ideya məkanını yaratmışlar.

Etnik baxımdan vahid bazaya malik olan türk xalqları siyasi və dövləti inteqrasiyada bir-birini assimilyasiya etməklə deyil, hər birinin özəlliyi və özünəməxsusluğunu qəbul edərək hüquqa tam əməl etməyə üstünlük verirlər. Məhz buna görədir ki, kimsə TDT-nin qarşısını ala bilməz. Əksinə, ağlı və müdrikliyi olan hər bir ölkə ya bu prosesə qoşular, ya da ondan faydalanmağa çalışar. Türklərlə düşmənçiliyin kimsəyə faydası yoxdur!

Türk Dövlətləri Təşkilatının nadirliyi Azərbaycan Prezidentinin vurğuladığı mühüm məqamlarla əlaqəlidir. Bütün bunların fonunda Prezident İlham Əliyev türk dövlətləri arasında münasibətləri lakonik və dəqiq təsvir edir. Azərbaycan lideri müsahibədə vurğulamışdır: “Türkiyə ilə bizim çox sıx münasibətlərimiz var və bu münasibətlər hazırda 2021-ci ildə Şuşada Prezident Ərdoğanla imzaladığımız, bizi hərbi və siyasi müttəfiqlər edən Bəyannaməyə əsaslanır. Bu, hüquqi cəhətdən təkcə hər iki ölkə üçün deyil, bütün Türk dünyası üçün mühüm amildir. Keçən il biz Özbəkistanla müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Həmçinin Türk Dövlətləri Təşkilatının digər üzvləri ilə bizim strateji tərəfdaşlıq müqavilələrimiz və ya bəyannamələrimiz var. Beləliklə, bu, böyük potensialdır”.

Bizcə, Azərbaycanın TDT üzvü kimi mövqeyi tamamilə ədalətli, konstruktiv və dəqiqdir. Bunun bütövlükdə təşkilata böyük faydası olduğuna qətiyyən şübhə yoxdur! Buradan da TDT-nin təşkilat kimi üç mühüm özəlliyi məntiqi olaraq alınır.

### Demoqrafik dinamika

Bu məqam Prezident İlham Əliyevin müsahibəsinin bir fraqmentindən aydın ifadə olunmuşdur. İlham Əliyev demişdir: “Ölkələrimizin əhalisinin sayı artır və bu da hər bir ölkə üçün vacib amildir. İqtisadi inkişafla dəstəklənəndə isə bu, üstünlük deməkdir. Ölkə kasıb olduğu zaman bəzən bunun mənfi nəticələri də olur. Amma bizim ölkələr kasıb deyil. Hər ölkə olmasa da, ölkələrimizin bir çoxu təbii sərvətlərə malikdir”.

Demoqrafik dinamikası yüksək olan cəmiyyətlər çoxdur. Ancaq digər şərtləri də nəzərə aldıqda davamlı inkişaf üçün yetərli deyildir. Türk dövlətləri elə təbii, mədəni, mənəvi, enerji və dövlətçilik təcrübəsi imkanlarına malikdirlər ki, demoqrafik dinamika onların birgə inkişafına dəstək verəcəkdir. Məsələnin bu tərəfi elmi olaraq hələ çox araşdırılmalıdır.

### Coğrafiya genişliyi

Müasir geosiyasətdə coğrafiya faktorunun dövlətçiliyə və tərəqqiyə təsiri məsələləri yeni intensivlik və sistemli olaraq tədqiq edilir. Türk coğrafiyası həmişə Avrasiya üçün çox böyük əhəmiyyəti olan faktor olmuşdur. Xüsusilə, son 300 ildə türk dövlətləri və dövlətçilik özəlliyinə qarşı imperialist dairələrin qərəzli və dağıdıcı təsiri fonunda Azərbaycan liderinin vurğulanan fikri türk qövmünün özünüdərki kontekstində əvəzsizdir. Prezidentin bu məsələ ilə bağlı aşağıdakı fikirlərinə baxanda vurğuladığımız məqamı görə bilərik: “Bizim geniş coğrafiyamız var. Türkiyə qlobal miqyasda aparıcı hərbi gücdür və Türkiyə ordusu NATO daxilində ABŞ-dan sonra ikinci yerdədir. Azərbaycan Ordusu da özünü paradlarda deyil, döyüş meydanında nümayiş etdirdi. Həmçinin logistika. Bu gün dəhlizlərdən danışanda bizdən yan keçə bilməzsiniz. Siz bizim ərazimizdən, obyektlərimizdən istifadə edə bilərsiniz. Həm də vacib olan odur ki, təşkilatın bütün üzvlərində siyasi sabitlik, bir-biri və hamısı arasında dost münasibətlər mövcuddur. Bu, təşkilatı həqiqətən nadir edir. Ona görə də biz onu konkret layihələrlə, investisiyalarla, enerji, daşımalar, mədəniyyət layihələri ilə möhkəmləndirməliyik. Ona görə də mən gələcəkdə bu təşkilatı mühüm qlobal iştirakçılardan biri kimi görürəm”.

Bu bir neçə cümlədə tarix, siyasət, geosiyasət, dövlətçilik qavramı və özünə tam güvən mükəmməl qarşılıqlı əlaqədə ifadə edilmişdir. Məsələnin bu tərəfini ciddi fəlsəfi, siyasi-nəzəri və bütövlükdə elmi tədqiq etməliyik. Bu, Azərbaycan aliminin imtiyazı deyil, məsuliyyətidir!

### Strateji qənaət və hədəf

Nəhayət, vurğulanan bütün özəlliklərin fonunda Azərbaycan liderinin ümumiləşdirici tezisi möhtəşəmdir. İlham Əliyev aşağıdakı tezisi ilə müsahibəyə yekun vurur: “…bizim fikrimiz beynəlxalq arenada rol oynaya bilən, təkcə daxili məsələlərlə məşğul olmayan qlobal oyunçuya çevrilməkdən ibarətdir ki, həm də beynəlxalq arenada sabitləşdirici, müsbət rol oynasın və qonşular üçün imkanlar yaratsın. Bununla da biz belə bir nəhəng coğrafiyada heç kimə təhlükə törətməyən, lakin çoxları üçün fürsət hesab edilən güclü birlik qura biləcəyimizi nümayiş etdirək”.

Bu fikirlərdə mənalar və məzmun özü-özünü aydın təqdim edir. Onların elmi izahına ciddi ehtiyacın olduğunun fərqindəyik. Bununla yanaşı, Azərbaycan Prezidentinin bütün türk xalqları, türk qövmü və bəşəriyyət üçün əhəmiyyəti böyük olan bir məsələyə tam aydınlıq gətirdiyinə qətiyyən şübhə yoxdur. İlham Əliyev milli lider, məharətli diplomatiya və ən əsası səmimiyyəti, ədalətliliyi və konstruktivliyi ilə mövqeyini növbəti dəfə nümayiş etdirmişdir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Rusiya–Azərbaycan:
## iqtisadi əməkdaşlıq davam edir

(əvvəli 1-ci səhifədə)

Bundan əvvəl Rusiya baş nazirinin müavini Aleksey Overçuk da hökumətlərarası komissiyalar vasitəsilə əməkdaşlığın inkişafı istiqamətində iş aparıldığını bildirmişdi: “Hər iki tərəf əməkdaşlığın inkişafında maraqlıdır”.

Bu sözləri şərh edən Çepa qeyd edib ki, “dostluq münasibətlərinin və iqtisadi maraqların inkişaf etdirilməsi perspektivləri çox böyükdür”. O, həmçinin xatırladıb ki, İsrailin İranla on iki günlük müharibəsi zamanı Bakı Rusiya vətəndaşlarına yardım edib: “Azərbaycan bütün zəruri addımları ataraq rusiyalıların təhlükəsiz şəkildə İrandan qayıtmasına köməklik göstərib. Bu, iki ölkə arasında humanitar və strateji əməkdaşlığın nümunəsi kimi qiymətləndirilir”.

Deputatın fikrincə, mövcud gərginlik əsasən kənardan dəstəklənir və münasibətləri pozmaq istəyən qüvvələr var: “Biz qonşularla dost olmalı, xüsusilə çətin anlarda bir-birimizə kömək etməliyik. Yəni bir-birimizə zərər verməyə çalışmamalıyıq. Əgər kifayət qədər müdriklik və dialoq istəyi nümayiş etdirilərsə, mövcud gərginlik aradan qaldırıla bilər”.

Əslində, bu proqnoz hazırkı vəziyyət nəzərə alındıqda həm diplomatik, həm də gələcəyə ümid bəsləyən bir yanaşmadır. Bu açıqlama, eyni zamanda, iqtisadi əməkdaşlığın zəruriliyini vurğulayır, siyasi gərginliyə baxmayaraq,



əlaqələrin bərpasının mümkünlüyünə işarə edir. Lakin reallıq onu göstərir ki, hazırkı mərhələdə iki ölkə arasında yaranan soyuqluğun aradan qalxması vaxt tələb edir.

Buna baxmayaraq, hər iki tərəf üçün iqtisadi əməkdaşlıq həyati əhəmiyyət daşıyır. Ticarət əlaqələri, enerji layihələri və nəqliyyat dəhlizləri kimi sahələrdə əməkdaşlıq Moskva və Bakı üçün faydalıdır. Rusiya hökumətinin vəzifəli şəxslərinin rəsmi bəyanatlarında əlaqələrin bərpası və inkişafı istiqamətində iradənin mövcudluğu görünür. Bu, uzunmüddətli strateji maraqların tələbidir və münasibətlərin yenidən qurulması üçün real zəmindir.

Göründüyü kimi, Aleksey Çepa və Aleksey Overçuk iki ölkə arasında münasibətlərin normallaşmasında maraqlıdırlar. Onlara görə, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafı regionun geosiyasi, iqtisadi və strateji reallıqları çərçivəsində xüsusi önəm kəsb edir. Bu əlaqələrin möhkəmləndirilməsi həm iki ölkənin maraqlarına, həm də geniş regional balansın qorunmasına xidmət edir. Rusiya üçün Azərbaycanla əməkdaşlıq yalnız iqtisadi deyil, həm də geosiyasi baxımdan vacib bir strategiyadır. Azərbaycan regionun qapısı, həmçinin Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin üzərindəki əsas ölkələrindən biridir. Bu dəhliz Rusiya üçün Qərbin sanksiyaları fonunda Avropa ilə Cənubi Asiya və Hindistan arasında yükdaşımalar baxımından böyük əhəmiyyət daşıyır. Yəni praqmatizm siyasi gərginliklərin qarşısında önə çıxır. Bununla belə iki ölkə arasındakı problemlər iqtisadiyyatda özünü göstərir.

*

Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın əsas istiqamətlərindən biri iqtisadi münasibətlərdir. Son illərin statistik göstəriciləri bu əməkdaşlığın artım dinamikasını əks etdirir. 2020–2024-cü illər ərzində Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 1,5 dəfədən çox artıb. Rusiya hazırda Azərbaycanın üçüncü ən böyük ixrac, Çindən sonra isə ikinci ən böyük idxal tərəfdaşıdır. 2025-ci ilin ilk beş ayında bu ticarət dövriyyəsi 25 faiz artaraq 2,16 milyard dollara çatıb. Müqayisə üçün qeyd edək ki, 2024-cü ildə bu göstərici 4,8 milyard dollar təşkil edib.

Azərbaycan üçün xüsusilə kənd təsərrüfatı məhsullarının ixracında Rusiya bazarı həlledici rol oynayır. Rusiyaya ixrac olunan məhsulların üçdəikisini kənd təsərrüfatı məhsulları təşkil edir. 2024-cü ildə meyvə və tərəvəz ixracı 600 milyon dollar olmuşdur. 2025-ci ilin ilk dörd ayında isə meyvə və qoz-fındıq 87,5 milyon dollar, tərəvəz və kök bitkiləri isə 73,7 milyon dollar dəyərində ixrac olunub. Lakin hazırda bu məhsulların Rusiya bazarlarına çıxışı məhdudlaşdırılıb və nəticədə onların böyük bir hissəsi daxili bazara yönəldilib.

Bu məqam Azərbaycanın iqtisadi təhlükəsizliyi və ixrac diversifikasiyası baxımından narahatlıq doğurur. **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri Fərid Şəfiyev** bildirdi ki, kənd təsərrüfatı məhsullarının Rusiyaya ixracında müəyyən problemlər olsa da, bunlar sistemli xarakter daşımır: “Əlaqələrin tam kəsilməsi halında alternativ bazarlar tapmaq mümkündür. Lakin bu prosesin dərhal baş verməsi real deyil və zaman tələb edir”.

Alternativ bazar kimi Körfəz ölkələri xüsusi önəm daşıyır. Bununla belə, həmin bazarlara çıxış üçün logistika, saxlama, sertifikatlaşdırma və bazar araşdırmaları kimi sahələrdə ciddi hazırlıqlara ehtiyac duyulur. Bu həm məhsulun keyfiyyətinin artırılması, həm də markalaşma və rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından vacibdir.

İki ölkə arasında münasibətlərdə gərginliyin yaratdığı problemlərin Rusiyadan da yan keçmədiyinə diqqəti çəkən F.Şəfiyev Azərbaycanın Rusiyadan əsasən yanacaq, metal, gübrə,



buğda, şəkər, ət məhsulları və elektrik avadanlıqları idxal etdiyini bildirdi. Rusiya üçün Azərbaycanın bu məhsullar üzrə bazar kimi əhəmiyyəti böyükdür və əlaqələrin pozulması istehsalçılar üçün iqtisadi çətinliklər yarada bilər. Eyni zamanda Rusiyada Azərbaycan məhsullarına, xüsusilə də pomidor və xurmaya tələbat mövcuddur. Qış aylarında bu məhsulların Rusiyaya idxalı qiymət sabitliyinin qorunmasında mühüm rol oynayır. Məsələn, Rusiyadakı pomidor bazarının 30–35 faizi Azərbaycandan idxal olunan məhsulların payına düşür.

*

Bununla belə, siyasi münasibətlərdəki gərginliyə rəğmən, iqtisadi əlaqələr tamamilə pozulmayıb. 2025-ci ildə Şimal–Cənub nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlıq sazişinin imzalanması bu baxımdan mühüm hadisədir. Yol şəbəkələrinin inteqrasiyası, sərhəd-keçid məntəqələrinin modernləşdirilməsi və Xəzər dənizində yeni marşrutların yaradılması iki ölkə arasında iqtisadi əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Faktlar onu göstərir ki, iqtisadi məntiq və qarşılıqlı maraqlar siyasi gərginliklərdən üstün tutulur. Bakı ilə Moskva arasında əməkdaşlıq regional və beynəlxalq təşkilatlar çərçivəsində davam edir. Bu qurumlarda əməkdaşlıq hər iki ölkənin iqtisadi, təhlükəsizlik və enerji maraqlarına xidmət edir, regionda sabitliyin və davamlı inkişafın təmin olunmasına töhfə verir.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlıq çoxşaxəli və dinamik xarakter daşıyır. Bu münasibətlər təkcə iki ölkənin iqtisadi maraqlarını deyil, həm də regional sabitliyi və geosiyasi balansı qorumağa xidmət edir. Rusiya üçün Azərbaycanla əməkdaşlıq hər iki tərəfin iqtisadi maraqlarının təmin etmək baxımından vacibdir. Aleksey Çepa və Aleksey Overçuk da bunu istəyir.

Politoloq Fərid Şəfiyevin də qeyd etdiyi kimi, Rusiyanın əvvəllər Gürcüstanla münasibətləri pozması presedenti olsa da, bu əlaqələr yenidən strukturlaşdırıldı. Ekspertin fikrincə, Azərbaycan–Rusiya münasibətlərində də mövcud gərginliyin uzunmüddətli nəticələri olacağı ehtimalı azdır və böhranın həllinə ümid böyükdür. Bu onu göstərir ki, iqtisadi əməkdaşlıq hər iki tərəf üçün strateji əhəmiyyət kəsb edir və bu əlaqələrin davamlılığı və potensialının saxlanılması vacibdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan Çinin bütün təşəbbüslərini dəstəkləyir

## *Ölkəmiz Asiyanın strateji arenasında önəmli iştirakçıya çevrilib*

**Bu gün beynəlxalq sistem XX əsrin klassik modelini öz çiyinlərində daşımaqda çətinlik çəkir. Yeni qlobal təşəbbüslər meydana çıxır, müasir beynəlxalq nizamda yaranan boşluqlar məhz yeni formatların aktuallığını artırır. Qərbin hegemon təsirlərindən kənar, dövlətlərin suveren bərabərliyi üzərində qurulan platformalar yeni reallıqların inikası sayılır.**




Bu mənada Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) yalnız regional təhlükəsizlik mexanizmi deyil, həm də alternativ düşüncənin daşıyıcısı rolunu oynayır. Burada ölkələrin birləşməsi hər hansı güc mərkəzinə qarşı yönəlmir, əksinə, ədalətli qlobal idarəetməyə çağırış kimi çıxış edir.

Azərbaycan uzun müddətdir ki, çoxşaxəli siyasəti ilə fərqlənib, balansı qoruyaraq həm regional, həm də qlobal miqyasda fəal oyunçuya çevrilib. Sentyabrın 1-də Çinin Tiencin şəhərində “ŞƏT plyus” formatında keçirilən toplantıda Prezident İlham Əliyevin çıxışı məhz bu xəttin məntiqi davamı idi.

Azərbaycanın Çin tərəfindən irəli sürülən təşəbbüslərə dəstəyi, suverenliyə və beynəlxalq hüquqa vurğu etməsi, ŞƏT çərçivəsində öz mövqeyini möhkəmləndirməsi göstərir ki, ölkəmiz bu platformanı gələcəyin beynəlxalq nizamı üçün mühüm siyasi laboratoriya kimi görür. Başqa sözlə, rəsmi Bakının gözündə ŞƏT ədalətli dünya düzəninin sınaq meydanıdır.

Dövlətimizin başçısı Tiencində Azərbaycanın yeni xarici siyasət konturlarını açıq şəkildə göstərdi. Ölkə prezidenti təkcə diplomatik təmənnalardan danışmadı, eyni zamanda, Pekinlə münasibətlərin strateji dərinliyini dünyaya nümayiş etdirdi: “Son iki ildə əlaqələrimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Ötən il Astanada keçirilmiş ŞƏT Sammiti çərçivəsində biz strateji tərəfdaşlıq qurduq. Bu il mənim Çinə dövlət səfərim zamanı hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin təsis edilməsi barədə Birgə Bəyanat imzalandı. Bu tarixi hadisə Azərbaycan–Çin münasibətlərində yeni bir səhifə açdı”.

Prezident İlham Əliyevin çıxışı Çinlə münasibətlərin strateji dərinliyini açıq şəkildə ortaya qoyur. Cari il aprelin 23-də Çinə dövlət səfəri edən Prezident İlham Əliyev ÇXR Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü zamanı bildirmişdi ki, rəsmi Bakı “Vahid Çin” strategiyasını dəstəkləyir. Öz növbəsində rəsmi Pekin də mütəmadi olaraq beynəlxalq platformalarda ölkəmizlə bağlı ədalətli qərarların verilməsində aktiv iştirak edib. Bir-birini mükəmməl formada tamamlayan bu siyasi sinergiya “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat”ın imzalanmasına gətirib çıxardı.

Azərbaycanın Çin tərəfindən irəli sürülən qlobal təşəbbüslərə açıq dəstək verir. Dövlət başçısı Tiencində çıxışı zamanı, həmçinin qeyd etdi ki, Azərbaycan beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi məqsədilə Çin tərəfindən irəli sürülmüş Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləmişdir: “Biz, həmçinin Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəetmə Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış bir addım kimi alqışlayırıq”.

Yeri gəlmişkən, Qlobal İnkişaf Təşəbbüsü 2021-ci ildə Sədr Si Cinpin tərəfindən irəli sürülüb. Əsasən yoxsulluğun aradan qaldırılması, bərabər imkanların təmin edilməsi və dayanıqlı inkişafın təşviqinə yönəlir. 2022-ci ildə təqdim edilmiş Qlobal Təhlükəsizlik Təşəbbüsü isə beynəlxalq təhlükəsizliyin gücləndirilməsi və ədalətli çoxtərəfli münasibətlərin təşkili məqsədi daşıyır. Qlobal Sivilizasiya Təşəbbüsünə gəldikdə isə Sədr Si Cinpin mədəniyyətlərarası dialoqu prioritet hesab edir. Azərbaycan da bu sahədə aktiv mövqe tutur. 2008-ci ildən həyata keçirilən Bakı Prosesi, Beynəlxalq Humanitar forumlar və Mədəniyyətlərarası Dialoq forumları ölkəmizin bu istiqamətdəki töhfəsini göstərir. Tələbə mübadiləsi proqramları, Konfutsi institutlarının fəaliyyəti və ortaq mədəni layihələr Azərbaycan–Çin dialoqunun davamlı inkişafına xidmət edir. Ümumiyyətlə, Azərbaycan hər üç təşəbbüsü dəstəklədiyini Çin ilə imzalanan Birgə Bəyanatın 15-ci bəndində rəsmən təsdiqləyib və “Qlobal İnkişaf Təşəbbüsünün Dostları Qrupu”na qoşulmağa hazır olduğunu bildirib.

Bakı hesab edir ki, Pekinin irəli sürdüyü təşəbbüslər ətrafında formalaşan yeni beynəlxalq düzən Qərbin hegemon təsirlərindən fərqli olaraq, regional dövlətlərin maraqlarını nəzərə alır. Azərbaycan bu təşəbbüsləri qəbul etməklə özünü Asiya mərkəzli strateji arenanın mühüm iştirakçısına çevirir. Xüsusilə Qlobal İdarəetmə Təşəbbüsünə verilən dəstək təsadüfi deyil. Cənab İlham Əliyev bu platformanı dövlətlərin suverenliyini qoruyan alternativ kimi təqdim edir. Bu, Azərbaycanın uzun illərdir müdafiə etdiyi mövqeyin davamıdır: gücün diktəsi yox, beynəlxalq hüququn hökmü. Eyni zamanda, bu həm Qərbə ünvanlanmış mesajdır, həm də Azərbaycanın getdikcə daha çox Çin orbitinə yaxınlaşdığını nümayiş etdirir.

Sonda xüsusi olaraq qeyd etməliyik ki, Prezident İlham Əliyevin ŞƏT-in XXV sammitində iştirakı Azərbaycan diplomatiyasının Şərq vektorunda yeni mərhələni təsdiqlədi. Yəni Bakı Qərblə bir çox sahələrdə əməkdaşlığı davam etdirməklə yanaşı, Çin kimi güclərlə də açıq və prinsipial tərəfdaşlığa davam edəcək.

***Tacir SADIQOV***
***XQ***

**Ekspert rəyi**



***Oqtay QASIMOV,***
***politoloq***

Azərbaycan Prezidentinin Çinə səfəri zamanı səsləndirdiyi bəyanatlar diqqət çəkir. Xüsusilə Çinlə strateji tərəfdaşlıq münasibətlərinin qurulması və Sədr Si Cinpinin Qlobal İnkişaf Təşəbbüsü, Qlobal Təhlükəsizlik Təşəbbüsü və Qlobal Sivilizasiya Təşəbbüslərini dəstəklədiyini bəyan etməsi diqqətəlayiqdir. İlk növbədə qeyd etmək lazımdır ki, hazırda dünyada baş verən bir çox münaqişələr və gərginliklər həm də sivilizasiyalar və mədəniyyətlərarası ziddiyyətlərdən qaynaqlanır. Bu proses özünü daha qabarıq şəkildə göstərir. Hətta 1990-cı illərdə bununla bağlı elmi əsərlər yazılıb. Qlobal Sivilizasiya Təşəbbüsləri bütün dinlərin və ənənələrin mövcudluğunu nəzərə alaraq, onların yanaşı yaşaması, qarşılıqlı əlaqə və inkişafın təmin olunması kimi başa düşülməlidir. Eyni zamanda Çin, xarici siyasət prinsipləri çərçivəsində, digər ölkələrin daxili işlərinə müdaxilə etməmək kimi əsaslı mövqe ortaya qoyur ki, bu da vacib məsələdir.

Qlobal İnkişaf Təşəbbüsünə gəldikdə, son 10 ildə Çin bu sahədə mühüm irəliləyişlər əldə edib. Bu baxımdan Azərbaycan Prezidentinin Çinin yüksək texnologiya, bərpa olunan enerji və kiber təhlükəsizlik sahələrində fəaliyyət göstərən şirkətləri və onların nümayəndələri ilə görüşləri mühüm əhəmiyyət daşıyırdı.

Çinin Qlobal Təhlükəsizlik Təşəbbüsü dünyada münaqişələrin qarşısının alınması, ticarətin inkişafı, təhlükəsiz nəqliyyat və logistika siyasətinin həyata keçirilməsi məqsədini güdür və xüsusilə Çinin strateji maraqlarına uyğundur. Çin “Bir kəmər, bir yol” layihəsinin gerçəkləşəcəyi Avrasiya regionunda münaqişələrin olmaması, sabitliyin qorunması, iqtisadi inkişafın və rifahın təmin olunması əsas məqsəd kimi çıxış edir. Azərbaycan da bu təşəbbüsləri dəstəkləyir, çünki ölkəmiz Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin edilməsinə ciddi önəm verir. Həqiqətən də, bu regionda təhlükəsizlik arxitekturasının qurulmasında Azərbaycanın rolu mühüm olmuşdur və təhlükəsizlik təmin edildikdən sonra iqtisadi rifah, sabitlik və inkişafın yeni mərhələsi başlayacaq.

# “Aİ missiyası”nın geosiyasi alət olduğu təsdiqlənir



**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, tərəflərin qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklərinə dair bənd yalnız nəzəri cəhətdən Azərbaycana aid ola bilər. Reallıqda isə bu bənd bilavasitə Ermənistanla bağlıdır. Çünki məhz rəsmi İrəvan Azərbaycanla şərti sərhəd boyunca Avropa İttifaqının Ermənistandakı Missiyası (EUMA – European Union Mission in Armenia) adlanan yarıhərbi, yarımülki missiya yerləşdirib. Missiya ilk baxışdan bölgədə gərginliyi azaltmağı, sabitliyi möhkəmləndirməyi və sülh prosesinə dəstək verməyi hədəfləsə də, onun fəaliyyəti hər zaman ciddi suallar doğurub. Xüsusilə, EUMA ölkəmizin sərhədləri yaxınlığında müşahidə apardığı üçün Azərbaycanda daim ciddi tənqid obyektinə çevrilib. Missiyanın bölgədə təhlükəsizliyin təmin olunması adı altında kəşfiyyat məlumatları toplamağa və görüntü yaratmağa xidmət etdiyi bildirilir. Əsas narazılıqlardan biri də odur ki, Aİ nümayəndələri regionun həssas balansını nəzərə almadan birtərəfli yanaşmalar sərgiləyirlər. Bakı, həmçinin, bu missiyanın Ermənistanın mövqelərini gücləndirməyə yönəldiyini və sülh prosesinə zərbə vura biləcəyini vurğulayır. Digər tərəfdən, missiyanın fəaliyyətində şəffaflığın olmaması və mandatının qeyri-müəyyənliyi Azərbaycan cəmiyyətində inamsızlıq yaradır. Nəticə etibarilə Aİ-nin bu addımı regionda sabitlik vasitəsi kimi deyil, geosiyasi təsir aləti kimi qiymətləndirilir.

Sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında sazişin paraflanmasından sonra güman etmək olardı ki, EUMA tezliklə ömrünü başa vuracaq. Ancaq deyəsən, yanılmışıq. Hər halda Aİ-nin Ermənistandakı səfiri Vasilis Maraqosun dediklərindən gəlinən qənaət budur. Səfir “Azadlıq” radiosu müxbirinin sazişin paraflanmasından sonra müşahidəçilərin sərhəddən çıxarılması ilə bağlı sualını cavablandırarkən deyib: “Avropa İttifaqı öz mandatına uyğun olaraq Ermənistanda monitorinq missiyasını davam etdirəcək və indiki məqamda hər hansı dəyişikliyə ehtiyac yoxdur. Mənə məlumdur ki, Ermənistan xalqı və hakimiyyəti Aİ-nin Ermənistandakı missiyasını alqışlayır. O, öz fəaliyyətini davam etdirir. Əgər hər hansı dəyişikliyə ehtiyac olarsa, biz bunu üzv dövlətlərimizlə və təbii ki, Ermənistan hakimiyyəti ilə müzakirə edəcəyik. Amma indiki mərhələdə mən Ermənistan ictimaiyyətini əmin etmək istəyirəm ki, Aİ missiyası öz mandatına uyğun olaraq fəaliyyətini davam etdirəcək”.

Vaşinqtondakı paraflanmadan sonra hər hansı müzakirələrin olub-olmaması ilə bağlı suala Maraqos belə cavab verib: “Vurğulamalıyam ki, Aİ-nin Ermənistandakı missiyası erməni hakimiyyətinin xahişi ilə buradadır və nə qədər lazımdırsa, burada qalacaq. Bu, sülh və nizamlanma alətidir. Və biz bunu tam dəstəkləyirik”.

Qeyd edək ki, bir EUMA-nın fəaliyyətini davam etdirəcəyinin anonsunu ilk olaraq avqustun 15-də Aİ-nin xarici siyasət üzrə rəsmi nümayəndəsi Anita Hipper vermişdi. O, missiyanın fəaliyyətini davam etdirəcəyini bildirməklə yanaşı, əlavə etmişdi ki, onun mandatına mümkün dəyişikliklər İrəvan və Brüssel arasında müzakirə olunacaq. Xanım Hipper hazırda missiyanın əsas vəzifəsinin Ermənistan–Azərbaycan şərti sərhədindəki vəziyyəti monitorinq edərək məlumat toplamaq olduğunu bildirmişdi. Onun sözlərinə görə, Aİ Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasını alqışlayıb və tərəfləri bu sazişi mümkün qədər tez imzalamağa və ratifikasiya etməyə çağırıb.

Qeyd etdiyimiz kimi, sülh sazişinin paraflanmasından sonra bölgədə yeni reallıqların formalaşması fonunda EUMA-nın fəaliyyətini başa vuracağı güman edilirdi. Çünki bu missiyanın əsas təqdim edilən funksiyası sərhəddə gərginliyi izləmək, insidentlərin qarşısını almaq və tərəflər arasında etimad mühitinə dəstək vermək idi. Lakin görünən odur ki, missiyanın mandatı əvvəlki kimi qüvvədə saxlanılır və Aİ onu davam etdirmək niyyətindədir. Bu isə təbii olaraq Azərbaycanda və regiondakı bir sıra müşahidəçilərdə suallar doğurur: əgər sülh sazişi artıq paraflanıbsa və gərginlik azalıbsa, onda EUMA-nın bölgədə qalmasının məqsədi nədir? Səfir V.Maraqosun açıqlamaları bu sualları daha da gücləndirir. Onun sözlərinə görə, missiyanın fəaliyyəti hazırkı mərhələdə heç bir dəyişiklik olmadan davam edəcək və yalnız Ermənistan hakimiyyətinin, həmçinin Aİ üzv dövlətlərinin mövqeyi nəzərə alınacaq. Əslində, Maraqosun mövqeyində diqqətçəkən əsas məqam ondan ibarətdir ki, missiyanın fəaliyyətinin davam etdirilməsi ilə bağlı qərar verərkən Azərbaycanın maraqları və təhlükəsizlik narahatlıqları, ümumiyyətlə, nəzərə alınmır. Halbuki, bu missiya Ermənistan–Azərbaycan sərhədində yerləşdirilib və dolayısı ilə Azərbaycanın milli maraqlarına da təsir göstərir. Bu isə missiyanın birtərəfli xarakter daşıdığı fikrini gücləndirir.

Səfirin fikirlərində başqa bir problem də onun Aİ missiyasını “erməni xalqı və hakimiyyətinin alqışladığı” qurum kimi təqdim etməsidir. Missiya doğrudan da neytral təhlükəsizlik alətidirsə, onda o, yalnız bir tərəfin siyasi və ictimai rəğbəti ilə ölçülməməlidir. Müşahidəçilərin fəaliyyətinə digər tərəfin – Azərbaycanın da münasibəti nəzərə alınmalıdır. Səfirin üslubu açıq şəkildə göstərir ki, EUMA İrəvanın xahişi ilə bölgədə mövcuddur və faktiki olaraq, Ermənistanın mövqeyinə uyğun fəaliyyət göstərir. Bu isə missiyanın balanslı vasitəçi deyil, bir tərəfə üstünlük verən mexanizm olduğunu ortaya qoyur.

Aİ-nin xarici siyasət üzrə nümayəndəsi Anita Hipperin açıqlamasına gəldikdə isə qeyd etmək lazımdır ki, Azərbaycan faktiki olaraq prosesdən kənarda saxlanılır və onun mövqeyi nəzərə alınmır. Halbuki missiyanın birbaşa fəaliyyət zonası Azərbaycanın təhlükəsizliyinə də təsir edir. Bu fakt Aİ-nin missiyanı regional sabitlik vasitəsi kimi deyil, daha çox Ermənistanın siyasi dəstək aləti kimi saxladığını təsdiqləyir.



Mövzu ilə bağlı XQ-yə açıqlama verən **Dövlət İdarəçilik Akademiyasının rektorunun müşaviri, politoloq Zaur Məmmədov** bildirdi ki, indiyədək EUMA-nın fəaliyyəti bölgədə insidentlərin, gərginliyin azalmasına və ya tərəflər arasında inamın artmasına konkret təsir göstərməyib. Onun sözlərinə görə, əksinə, Ermənistan tərəfi çox zaman bu missiyadan öz mövqeyini legitimləşdirmək üçün istifadə edir: “Müşahidəçilərin hesabatları və fəaliyyət dairəsi isə Azərbaycana təqdim olunmur, bu da şəffaflıq baxımından böyük boşluq yaradır. Yəni missiyanın fəaliyyətində həm balans, həm də hesabatlılıq prinsipləri ciddi şəkildə pozulub. Ən mühüm məqamlardan biri də odur ki, EUMA bölgədə real təhlükəsizlik mexanizmi deyil. Ermənistan və Azərbaycan arasında, bütövlükdə bölgədə sülhün bərqərar olmasında onun heç bir rolu yoxdur. EUMA vaxtilə sərhəddə baş verən silahlı insidentlərin qarşısını almaq və ya hər hansı təhlükəni aradan qaldırmaq imkanına da malik deyildi. Onların mandatı yalnız müşahidə və məlumat toplamaqla məhdudlaşır. Ermənistan rəhbərliyi əvvəlki dövrdə missiyanın fəaliyyətini daxili siyasətdə təbliğat vasitəsinə çevirdiyini də unutmaq olmaz”.

Politoloqun fikrincə, bütövlükdə, həm səfir Maraqosun, həm də xanım Hipperin açıqlamaları göstərir ki, Aİ missiyası sülh sazişindən sonra da bölgədə qalmaqda israrlıdır və bu, yeni siyasi məqsədlərlə əlaqəlidir: “Missiya artıq əvvəlki kimi “təhlükəsizlik aləti” deyil, daha çox “geosiyasi mövcudluq” simvoluna çevrilib. Azərbaycan üçün isə bu vəziyyət haqlı narahatlıq doğurur, çünki tərəfsizlik və balans prinsipləri pozulduqca, missiyanın regionda sabitliyə deyil, yeni gərginlik ocaqlarına xidmət etməsi ehtimalı artır”.

Onu da bildirək ki, avropalı müşahidəçilər Ermənistana 2023-cü il fevralın 20-də gəliblər. Bu ilin yanvarında onların Ermənistanın sərhədyanı ərazilərində mövcudluq müddətinin daha iki il – 2027-ci il fevralın 19-dək uzadılması qərara alınıb. Rəsmi Bakı dəfələrlə EUMA-nı casusluqda, kəşfiyyat məlumatları toplamaqda ittiham edib. Aİ missiyası bu ittihamları təkzib etsə də, missiyanın mandatı qeyri-müəyyən şəkildə müəyyənləşdirildiyi bir faktdır. Bu da onun real təsir imkanlarını şübhə altına alır. Aİ müşahidəçilərinin fəaliyyətində tərəfsizlik prinsipinin pozulduğu barədə tənqidlər də az deyil. Ermənistan hakimiyyəti isə həmin vaxt missiyadan daha çox siyasi legitimlik qazanmaq üçün istifadə etməyə çalışırdı. Regionun Rusiya və İran kimi dövlətləri də bu missiyanı rəqabət aləti kimi görür və onun səmərəliliyini açıq şəkildə şübhə altına alırlar. Nəticədə Aİ missiyası nəzərdə tutulan məqsədlərə deyil, daha çox geosiyasi maraqlara xidmət edən bir mexanizmə çevrilib.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycanda iqlimə uyğunlaşma tədbirləri genişlənir

## *Bu keçidə beynəlxalq maliyyə dəstəyi də artır*

**Dünyada iqlim dəyişikliyi ilə bağlı narahatlıqlar dərinləşdikcə, maliyyə dəstəyi məsələsi də ön plana çıxır. "Moody's" beynəlxalq reytinq agentliyinin son hesabatı göstərir ki, beynəlxalq maliyyə institutları (BMİ) Azərbaycanda iqlimə uyğunlaşma tədbirləri üçün yaranan maliyyə çatışmazlığını aradan qaldırmaqda həlledici rol oynaya bilər.**




Hesabatda diqqətə çatdırılır ki, son 10 ildə Mərkəzi Asiya və Qafqaz ölkələrində məhz çoxtərəfli və ikitərəfli inkişaf bankları iqlim layihələrinin kreditləşdirilməsini əhəmiyyətli dərəcədə artırıblar. Özəl investisiyaların rolu artsa da, dövlətlərin üzərinə düşən əsas yükün yüngülləşdirilməsində BMİ-lərin iştirakı həyati əhəmiyyət daşıyır. Bu yanaşma həm də Azərbaycan və Özbəkistan kimi ölkələrin kredit qabiliyyətinə dair risklərin azalmasına xidmət edir. "Moody's"in hesabatında vurğulanır ki, region ölkələri artıq BMİ-lərin güzəştli kreditlərinə güvənirlər. Məsələn, çoxtərəfli inkişaf bankları tərəfindən təmin edilən maliyyələşmə Azərbaycanda dövlət xarici borcunun 36 faizini təşkil edir. Bu göstərici Özbəkistanda 26, Gürcüstanda 25, Ermənistanda və Tacikistanda isə 22 faizdir. Halbuki, orta gəlirli ölkələr üzrə bu rəqəm 2023-cü ildə cəmi 10 faiz olub.

Bu fakt bir daha sübut edir ki, beynəlxalq maliyyə institutları region ölkələri, o cümlədən Azərbaycan üçün iqlim mübarizəsində vacib dayaqlardan birinə çevrilib. Onların dəstəyi olmadan nə qlobal hədəflərə çatmaq, nə də "yaşıl" keçidin iqtisadi əsaslarını möhkəmləndirmək mümkündür.

Digər tərəfdən, Mərkəzi Asiya və Qafqaz ölkələri son illərdə enerji sektoruna özəl investisiyaların cəlb edilməsi üçün mühüm addımlar atıblar. Bu istiqamətdə həyata keçirilən əsas tədbirlərə enerji bazarlarının liberallaşdırılması, dövlət subsidiyalarının azaldılması kimi məsələlər daxildir. Bu islahatlar nəticəsində Qırğızıstan, Tacikistan və Özbəkistan elektrik enerjisi tariflərini xərclərin ödənilməsi səviyyəsinə çatdırmaq üçün ardıcıl addımlar atır. Xüsusilə Özbəkistan 2027–2028-ci illərə qədər tam şəkildə bu modelə keçməyi hədəfləyir. Atılan bu addımlar regionda rəqabət mühitini gücləndirib, enerji bazarlarını daha cəlbedici edib və yeni investisiya axınını təmin edib. Nəticə etibarilə, Azərbaycan və Özbəkistan bərpaolunan enerji mənbələrinin inkişafında ön sıralara çıxaraq regional liderlər mövqeyini möhkəmləndirirlər.

Ümumiyyətlə, Azərbaycan bərpaolunan enerji mənbələri üzrə iddialı hədəfləri bir-bir reallaşdırır. Ölkə 2030-cu ilədək quraşdırılmış enerji gücünün 35,5 faizini BOEM-dən (bərpaolunan enerji mənbələrindən) əldə etməyi qarşısına məqsəd qoyub. Bu istiqamətdə ümumi gücü 2 250 meqavat olan günəş və külək layihələrinin istifadəyə verilməsi planlaşdırılır. Məhz "Moody's"in hesabatında bu faktor başlıca amildir. Belə ki, xarici investorların marağı bu planların həyata keçirilməsində mühüm rol oynayır.

Artıq Azərbaycanın enerji xəritəsində strateji əhəmiyyətli bir sıra iri layihələr var. Onların sırasında gücü 240 MVt, dəyəri isə 200 milyon ABŞ dolları olan "Şəfəq" günəş elektrik stansiyası, 230 MVt gücə malik və 262 milyon dollarlıq "Qaradağ" günəş elektrik stansiyası xüsusi yer tutur. Bundan əlavə, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti 1 QVt gücə malik nəhəng "Mega" layihəni reallaşdırır. Eyni zamanda, "Xızı-Abşeron" külək elektrik stansiyasının (240 MVt, 34 milyon dollar) inşası da nəzərdə tutulub.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə SOCAR ilə strateji əməkdaşlığa imza atıb. Bu razılaşmaya əsasən, Azərbaycanda quruda 1 QVt, dənizdə isə 1,5 QVt gücündə külək stansiyaları tikiləcək, enerjinin saxlanması sistemləri yaradılacaq və "yaşıl hidrogen" layihələri həyata keçiriləcək. Məhz Azərbaycanın bu addımları COP29-dan sonra güclü töhfə olmaqla yanaşı, ölkəmizi regionda "yaşıl" enerji lideri mövqeyinə daşıyır.

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



***Eyyub KƏRİMLİ,***
***İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı-ekspert***

Bir çox beynəlxalq reytinq agentliklərinin hesabatları "Moody's" in əks etdirdiklərini təsdiqləyir. Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı iqlim dəyişikliklərinə uyğunlaşma tədbirləri üçün çox aşağı faizlə kreditlər və qrantlar təqdim edir. Bu, şübhəsiz, görülən işlərin daha genişmiqyaslı və mükəmməl həyata keçirilməsinə, həmçinin investisiya qoyuluşunun artmasına imkan yaradır. Həmin qurumların prosesə cəlb olunması isə risklərin azalmasına xidmət edir. Çünki beynəlxalq təsir imkanlarına malik olan investorlar risklərin minimuma endirilməsini təmin etməklə layihələrin daha real şəkildə gerçəkləşməsinə dəstək göstərirlər.

Bir məqamı da qeyd edək ki, 2030-cu ilə qədər karbonsuzlaşdırma hədəfinə nail olmaq üçün Mərkəzi Asiya və Qafqaz ölkələrinə təxminən 120 milyard dollar investisiya lazım gələcək ki, bu da ÜDM-in təqribən 14 faizini təşkil edir. Məhz bu qəbildən xarici investisiyaların cəlb olunması iki mühüm aspekti özündə cəmləyir: yeni iş yerlərinin açılmasına, həmçinin ölkələrin maliyyə reytinqlərinin yüksəlməsinə müsbət təsir və "təmiz" regional sfera. İnvestisiya həm də gələcəkdə daha ucuz kredit resurslarının tətbiqinə imkan yaradacaq.

Eyni zamanda, ixrac potensialının şaxələndirilməsi istiqamətində də ciddi fayda verəcək. Əlbəttə, bütün bunlarla yanaşı, müəyyən risklər və çətinliklər də mövcuddur. Digər tərəfdən, iqlim riskləri və regional çağırışlar da diqqət mərkəzində olmalıdır. Hazırkı şəraitdə su ehtiyatlarının azalması, quraqlıq və su çatışmazlığı təhlükəsi məsələnin aktuallığını artırır və həyata keçirilən tədbirlərin səmərəliliyinə təsir göstərə bilər.

Məsələnin regional və qlobal aspekti – "Moody's" beynəlxalq reytinq agentliyinin qeyd etdiyi hökumətlərarası planlar Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında elektrik enerjisinin transsərhəd ticarətinə şərait yaratmaq üçün Xəzər "yaşıl" enerji dəhlizinin yaradılmasını nəzərdə tutur. Azərbaycan və Özbəkistan bərpaolunan enerji mənbələrinin (BOEM) inkişafında regional liderlər kimi seçilir. Hər iki ölkə həm də bərpaolunan enerji və "yaşıl" iqtisadiyyat sahəsində strateji tərəfdaşlıqlarını gücləndirə, bu əməkdaşlıq sayəsində regionda yeni inkişaf imkanları yarada bilərlər.

**Türk Dünyası Sığorta Birliyinin I Assambleyası Azərbaycan Mərkəzi Bankının strateji dəstəyi, Azərbaycan Sığortaçılar Assosiasiyasının təşkilatçılığı və Türk Dövlətləri Təşkilatının iştirakı ilə bu il sentyabrın 14-də Şuşada keçiriləcək.**

# Türk Dövlətləri Təşkilatı sığortaçılarının Şuşa zirvəsi




Assambleyada Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının dövlət rəsmiləri, maliyyə requlyatorları, sığorta assosiasiyalarının, eləcə də Türk Dövlətləri Təşkilatının rəhbərliyinin iştirakı nəzərdə tutulub. Toplantı rəsmi açılış hissəsi, türk dövlətlərinin maliyyə requlyatorlarının və sığorta assosiasiyalarının 2 ayrı müzakirə panelindən ibarət olacaq. Assambleya çərçivəsində Türk Dünyası Sığorta Birliyinin Türk Dövlətləri Təşkilatının məqsəd və prinsiplərinə əsaslanaraq yenidən formalaşdırılmasına dair "Proklamasiya sənədi" imzalanacaq.

Türk Dünyası Sığorta Birliyi 2022-ci ildə təsis edilib. Daha sonra Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının sığorta assosiasiyaları birliyə müşahidəçi təşkilat olaraq qoşulublar. Türk Dünyası Sığorta Birliyinin birinci assambleyası qurumun "Yol xəritəsi"nə əsasən, əlifba sırası ilə Azərbaycanda təşkil olunur.

Xatırladaq ki, "Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyi ümumi maraqlar əsasında birləşən, könüllülük, üzvlərin hüquqi bərabərliyi prinsipləri əsasında yaradılan, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır. Fəaliyyəti Azərbaycan Respublikasının ərazisini əhatə edən birlik 2006-cı il dekabrın 29-da Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınıb.

Qurumun əsas məqsədi Azərbaycan Respublikasında fəaliyyət göstərən və birliyin üzvləri olan sığorta və təkrar sığorta şirkətlərinin inkişaf etməsinə kömək göstərmək, onların sosial-iqtisadi proqramlarını dəstəkləmək, bu sahədə elmi biliklərini artırmaqdan ibarətdir. Hazırda ölkəmizin sığorta bazarında fəaliyyət göstərən 18 sığorta şirkəti və 1 təkrarsığorta şirkəti "Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyinin üzvüdür.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*

***Elmar MİRSALAYEV,***
***Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru, Türk Dünyası Sığorta Birliyinin həmtəsisçisi***

Türk Dünyası Sığorta Birliyi Azərbaycan Sığortaçılar Assosiasiyası ilə Türkiyə Sığorta Birliyinin birgə təşəbbüsü və əldə olunmuş ortaq razılığa əsasən 2022-ci il mayın 24-də tarixində Türkiyənin İstanbul şəhərində keçirilmiş Beynəlxalq Sığorta Zirvəsində təsis olunub. Birliyin



təsisçiləri Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın sığorta assosiasiyalarıdır. Sevinc hissi ilə bildirmək istəyirəm ki, Türk Dünyası Sığorta Birliyi türk dövlətlərinin iştirakı ilə yaradılmış ilk beynəlxalq maliyyə təşkilatıdır.

Qürurverici haldır ki, birliyimiz qısa zamanda bir sıra nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Türk Dövlətləri Təşkilatının diqqətini çəkib, fəaliyyətimiz rəğbətlə qarşılanıb. Təsadüfi deyil ki, biz də Türk Dünyası Sığorta Birliyini Türk Dövlətləri Təşkilatının məqsəd və prinsiplərinə əsaslanaraq yenidən formalaşdırmağa qərar verdik. Artıq Türk Dünyası Sığorta Birliyində 5 təsisçi üzvdən savayı, 3 ölkənin (Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası) sığorta assosiasiyaları müşahidəçi qismində təmsil olunurlar.

Türk Dünyası Sığorta Birliyinin başlıca məqsədi 8 ölkədən olan üzv və müşahidəçi təşkilatlar arasında sığorta və təkrarsığorta sahəsində qarşılıqlı təcrübə, kadr və məlumat mübadiləsinin təmin olunması, sığortaya dair təlim-tədris sahəsində əməkdaşlıqların qurulması və 8 ölkənin sığortaçılarının iştirakı ilə ortaq "sığorta hovuzu"nun formalaşdırılmasından ibarətdir.

Birliyin "Yol xəritəsi"nə əsasən Türk Dünyası Sığorta Birliyinin birinci Assambleyası Azərbaycanın Şuşa şəhərində keçiriləcək. Bu, son dərəcə qürurverici olmaqla yanaşı, sığorta sektoru üçün əlamətdar tarixi hadisədir. Türk dünyası sığortaçılarının Şuşada bir araya gəlməsi türk dövlətlərinin sığortalı inkişafına verilmiş ən gözəl töhfədir. İnanırıq ki, bu assambleya türk dünyası sığortaçıları üçün səmərəli əməkdaşlıq platforması olacaq.

# Braziliya Latın Amerikasında önəmli ticarət tərəfdaşımızdır

**İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Latın Amerikasında səfərdə olub. Onlar Braziliyada bir sıra tədbirlərdə iştirak edib, əməkdaşlığın inkişafına dair müzakirələr aparıblar.**



Braziliyanın vitse-prezidenti, inkişaf, sənaye, ticarət və xidmətlər naziri Jeraldo Alkminin Elnur Əliyevlə görüşü zamanı Azərbaycanın Braziliya ilə əməkdaşlığın möhkəmləndirilməsinə önəm verdiyi vurğulanıb. Ölkəmizdə həyata keçirilən islahatlar barədə məlumat verilib. Qeyd edilib ki, Braziliya ilə iqtisadi–ticarət əlaqələri uğurla inkişaf edir. 2025-ci ilin yanvar-iyul aylarında bu ölkə ilə ticarət dövriyyəsi 230 milyon ABŞ dollarından çox olub. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə iki dəfə yüksəkdir. Braziliya ilə ticarət dövriyyəsinin artırılması üçün geniş imkanlar olduğu diqqətə çatdırılıb. Tərəflər qarşılıqlı iqtisadi münasibətlərin gündəliyində olan məsələləri müzakirə ediblər.

Səfər çərçivəsində Azərbaycan Respublikası Hökuməti və Braziliya Federativ Respublikası Hökuməti arasında ticarət və investisiya əməkdaşlığı üzrə birgə işçi qrupunun 1-ci iclası keçirilib. İqtisadiyyat nazirinin birinci müavini, işçi qrupunun həmsədri Elnur Əliyev tədbirdə ticarət, investisiya, kənd təsərrüfatı, nəqliyyat və digər sahələrdə Braziliya ilə əməkdaşlığın və təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, bu baxımdan birgə işçi qrupu mühüm platforma rolunu oynayacaq. İclasda Azərbaycanın əlverişli işgüzar mühiti, investorlar üçün müxtəlif güzəştlər və münbit şərait təqdim edən geniş sənaye və aqroparklar şəbəkəsi haqqında məlumat verilib, braziliyalı sərmayədarlar fəal əməkdaşlığa dəvət edilib.

İclasda çıxış edən Braziliyanın xarici işlər nazirinin müavini, birgə işçi qrupunun həmsədri Laudemar Qonçalves de Aguiar Neto Azərbaycanla müxtəlif iqtisadi məsələlər üzrə tərəfdaşlığın gücləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Toplantıda Azərbaycanın Xarici İşlər, Rəqəmsal İnkişaf və Nəqliyyat, Elm və Təhsil nazirlikləri, Qida Təhlükəsizliyi Agentliyi, Aqrar Tədqiqatlar Mərkəzi, eləcə də İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO-nun səlahiyyətli nümayəndələri tərəfindən müvafiq sahələrdə işbirliyinin genişləndirilməsinə dair müzakirələr aparılıb, təkliflər səsləndirilib. Görüşün yekununa dair imzalanan protokolda ticarət və investisiya, nəqliyyat və logistika, enerji, kənd təsərrüfatı, qida təhlükəsizliyi, innovasiya, texnologiya, elm və təhsil və turizm sahələrində əməkdaşlıq məsələləri öz əksini tapır.

***XQ***

# AMB-nin Asiya İnkişaf Bankı ilə sığorta əməkdaşlığı

**Azərbaycan Mərkəzi Bankı (AMB) ilə Asiya İnkişaf Bankı (ADB) arasında ölkəmizdə sığorta sektorunda nəzarət və tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı geniş müzakirələr aparılıb.**



AMB-nin sədri Taleh Kazımov sosial şəbəkədə yaydığı açıqlamada bildirib ki, görüş ADB-nin icraçı direktoru Reyçl Tompsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə baş tutub. Söhbət zamanı qlobal iqtisadiyyatın qarşılaşdığı mövcud çətinliklər, Azərbaycanın iqtisadi inkişaf dinamikası, pul siyasətinin istiqamətləri, sığorta sektorunda nəzarət və tənzimləmə çərçivəsinin gücləndirilməsi, eləcə də bu sahənin potensial imkanları ətraflı müzakirə olunub.

Görüşdə AMB və ADB arasında gələcək əməkdaşlığın prioritetləri, habelə ADB-nin Azərbaycanın maliyyə sektorunda iştirak perspektivləri barədə fikir mübadiləsi də aparılıb.

***XQ***

# İri sahibkarlığa dövlət himayəsi

**Cari ilin iyul ayında Azərbaycanda fəaliyyət göstərən iri sahibkarlıq subyektlərinə 20 milyon manat kredit verilib. Bu barədə Azərbaycan Mərkəzi Bankı məlumat yayıb.**



Bildirilib ki, iyun ayının sonuna özəl bölmənin bu seqmentinə verilən kreditlərin həcmi 8 milyard 508 milyon manat təşkil edib. Bu da may ayının sonu ilə müqayisədə 21,4 milyon manat və ya 0,25 faiz çoxdur. Hesabat dövrünə ölkədə iri sahibkarlıq subyektlərinə verilən kreditlərin həcmi 8 milyard 486 milyon manat olub. Bankın məlumatında o da qeyd olunub ki, ilin iyun ayının sonuna Azərbaycan banklarının biznes kredit portfelinin həcmi 15 milyard 144 milyon manat təşkil edib.

Xatırladaq ki, bu il iyul ayının 1-nə olan məlumata görə, Azərbaycanda 966 iri sahibkarlıq subyekti fəaliyyət göstərir. Ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 0,5 faizini iri sahibkarlıq subyektləri təşkil edir. Onların əsas hissəsi "Ticarət; nəqliyyat vasitələrinin təmiri" (22,8 faiz), "Emal sənayesi" (13,3 faiz), "Tikinti" (11,6 faiz), eləcə də "Nəqliyyat və anbar təsərrüfatı" (6,3 faiz) sahələrində yaradılıb.

# Qəbələ: Polad ürəkli insanların Zəfərə layiq uğurları

## *MDB-nin "Gənclər paytaxtı" tarixi günlər yaşayır*

**Qəbələ şəhəri bir neçə gündən sonra III MDB Oyunlarına ev sahibliyi edəcək şəhərlərimizdən biridir. Mənim üçün ikiqat sevindirici faktdır ki, həmin mötəbər idman yarışlarının açılış və bağlanış mərasimləri doğulub böyüdüyüm Gəncə şəhərində olacaq, bir sıra oyunlar isə bölgə müxbiri olduğum Qəbələ, Şəki, Mingəçevir və Yevlaxda keçiriləcək.**

Hələ bir neçə ay əvvəldən məlum idi ki, Qəbələ Olimpiya İdman Kompleksi sentyabrın son 3 günündə stolüstü tennisçilərin, oktyabrın 3-dən 7-dək badmintonçuların, Qəbələ Şəhər Stadionu sentyabrın 28-dən etibarən bir həftə 16 yaşadək futbolçuların, Qəbələ Atıcılıq Klubu isə oktyabrın 3-dən 6-dək stend atıcılarının ixtiyarına veriləcək.

Bu anonsları qələmə almaq və ya dilə gətirmək olduqca asan məsələdir. Ancaq 11 ölkənin idman ictimaiyyətlərini təmsil edən çoxsaylı qonaqların, mətbuat təmsilçilərinin və həmin mötəbər yarışların keçirildiyi günlərdə ölkəmizə gələcək turistlərin hamısının yerləşdirilməsi, otel, iaşə ocaqları, istirahət mərkəzləri və digər sosial strukturların beynəlxalq standartlara cavab verən şəkildə hazırlanması o qədər də asan məsələ deyildi.

Son 6–7 ayda Qəbələdə bu istiqamətdə həyata keçirilən tədbirlərin miqyasını təsəvvür etmək belə çətindir. Ancaq həmsöhbətim məsul vəzifəli şəxslər dedilər ki, Qəbələ III MDB Oyunlarına ev sahibliyi etməyə tam hazırdır.

### 40 il unutmadığım müəllim tövsiyəsi

Universitet müəllimimiz – sonralar mən onun baş redaktor olduğu "Bakı" qəzetində də çalışmışdım – mərhum Nəsir İmanquliyev deyirdi ki, jurnalist məqalə hazırlamaq üçün birbaşa müəssisə rəhbəri ilə görüşməyə çalışırsa, onun yazısı uğurlu olmayacaq: "O yazı uğurlu alınır ki, müəllif getdiyi ünvanda hansısa maraqlı faktla və ya həmsöhbətlə rastlaşır və yazını rəhbərliyin verdiyi hesabat üzərində deyil, məhz həmin fakt əsasında qurur". Təvazökarlıqdan uzaq olsa da, mən həmişə mərhum müəllimimizin həmin tövsiyəsinə əməl etmişəm. Elə bu yazının qələmə alınmasından da rayon rəhbərliyinin xəbəri yoxdur.

Doğrudur, Səbuhi Abdullayev mətbuata, xüsusən, "Xalq qəzeti"nə daim hörmətlə yanaşır. Elə biz jurnalistlər də onun müasir tərəqqi və inkişaf yolunda olan ölkəmizin adına layiq göstərdiyi fəaliyyətini diqqətdən kənarda qoymuruq. Ancaq indi həm onun gündəlik iş qrafikinin çox sıx olduğunu nəzərə alaraq, həm də Nəsir müəllimin tövsiyələrinə ehtiram olaraq, eləcə şəhəri gəzib-dolaşmaqla yazı hazırlamağı məqsədəuyğun saydım.





### Yollar, a yollar...

Köhnə dostum Mansur Orucovla bir axşamüstü Nohur gölünün sahilində çay içmək istədik. Yeri gəlmişkən, bir dəfə bu rayonun Çarxana kəndindən olan ağsaqqal həmkarımız Telman Heydərovdan soruşmuşdum ki, Nohur sözü də göl mənası verirsə, "Nohur gölü" nə deməkdir? Maraqlı cavab vermişdi: "Həmin su hövzəsi 1949-cu ildə əkin sahələrinin suvarılması məqsədilə kiçik çayların qarşısı kəsilərək yaradılmışdı. İki dağın arasında süni göl yaradan Stalin hökuməti ona nə ad verəcəyini kimdən soruşardı ki?".

Qərəz, Mansura dedim ki, Qəbələ son 20 ildə təsəvvüredilməz dərəcədə inkişaf edib: "Qəbələnin tarixi haqqında yazan alimlər qeyd edirlər ki, bu şəhər orta əsrlərdə karvan yolunun üstündə idi. İndi isə bu şəhər üç istiqamətdən – İsmayıllıdan, Ağdaşdan və Oğuzdan – gələn mükəmməl avtomobil yollarına, sürət qatarlarının şütüdüyü müasir dəmir yoluna, ən böyük təyyarələrin belə rahatlıqla enib-qalxdığı hava limanına malikdir. Yəni su yolundan başqa bütün yollarınız var.

İlyas sanki "su yolundan başqa" ifadəsini gözləyirdi. Dərhal göldəki sayı onlarca olan, hamısını da turistlərin "idarə etdiyi" qayıqları göstərdi: "Bəs bu su yolu deyil?". Söhbətimizi qonşu stolda əyləşmiş ağsaqqal da eşidirmiş. O, "Üstəlik, dağların üstündən Dağıstana at yolu da var. Hələ dağların belinə dolanan Kanat yolunu demirəm"– deyərək fikirlərimizi tamamladı.



### Polad Həşimov küçəsində...

Hər dəfə bu küçədən keçəndə heç zaman unutmayacağım iki fakt yadıma düşür. Birincisi fakt cənab Ali Baş Komandan İlham Əliyevin rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə verdiyi tapşırıq idi:

"Mən mərhum generalın anası ilə danışmışam, ona başsağlığı vermişəm. Onun Vəndam kəndində, Qəbələ rayonunda yaşayan qohumlarına xüsusi diqqət göstərilməlidir. Bilirəm ki, diqqət göstərirsiniz. Daim diqqət mərkəzində olmalıdır. Onun yaxınları, övladları dövlət tərəfindən qayğı ilə əhatə olunur. Müdafiə nazirinə və digər aidiyyəti qurumların rəhbərlərinə müvafiq göstərişlər verilmişdir. General uzun müddət Sumqayıtda yaşamışdır və buna görə Sumqayıtın icra başçısına da göstəriş verilib. Siz də burada general Həşimovun adının əbədiləşdirilməsi ilə əlaqədar müvafiq addımlar atmalısınız!".

Xatırladım ki, Səbuhi müəllim dövlət başçımızın həmin tapşırığından dərhal sonra şəhərin ən gözəl küçələrindən birinə mərhum generalın adının verilməsini təmin etmişdi.

Unuda bilmədiyim ikinci faktı isə təvazökarlığa ehtiyac duymadan yada salıram. 4–5 ilin söhbətidir. Sosial şəbəkələrdə həbs edilmiş bəzi məmurların sayı-hesabı bilinməyən mülkü, əmlakı, sərvəti, var-dövləti haqqında çoxsaylı materiallar tirajlanırdı. Heç biri də yalan, iftira deyil, hamısı rəsmi materiallar idi. Belə bir zamanda Zaqataladan redaksiyaya, qəbələli əməkdaşımız İttifaq Mirzəbəyliyə zəng edərək soruşdum ki, Polad Həşimovun sərvətlərindən nə üçün yazmırsınız?

İstənilən mövzu və eyhamı maraqlı bir yazıya çevirə bilən həmkarımız mənim həmin atmacamın cavabını "Facebook"-da necə verdisə, 2–3 günə 30 mindən çox "bəyənmə" oldu. İ.Mirzəbəylinin həmin yazısını 30-dan çox sayt, bir o qədər də sosial şəbəkə fəalı paylaşdı. Mən indi həmin yazını məhz müəlifin "Facebok" səhifəsindən yox, "Xüsusi Təyinatlı Polis Dəstəsi, XTPD, OMON" adlı "facebook" istifadəçisinin səhifəsindən götürüb təqdim edirəm:

### 20 İyul 2020-ci il. Sözün bitdiyi yer

**Bölgə müxbirimiz İlqar Həsənov Zaqataladan zəng eləmişdi. Soruşdu ki, General Həşimovun sərvətlərindən nə üçün yazmırsınız?**

**Cin atına mindim:**

**– Onun nə sərvəti var idi, nə danışırsınız?**

**– Var – dedi, – istəyirsən sayım.**

**Sonra saydı:**

**– Onun sərvətləri – gendən gələn namus, azərbaycanlı qeyrəti, Türk vicdanı, qəbələli səmimiyyəti, vəndamlı ləyaqəti, zabit şərəfi, Ali Baş Komandana sədaqət, Vətənə məhəbbət, tabeçiliyində olan hərbçilərə diqqət, silaha sevgi, hərbi biliklərə maraq, cəmiyyət qarşısında məsuliyyət, anasının qarşısında İbadət... Yenə də sayım?**

**Dedim, yox, bəsdir. Sonra isə öz-özümə sual verdim:**

**– Cavan bir adam bu qədər sərvəti necə toplaya bilib?**

**Təsəllimiz odur ki, oliqarx milyonerlərin qazandığının hamısı bu dünyada qalır, Polad Həşimovun qazandıqları isə həm bu dünyada qaldı, həm də o biri dünyaya apara bildi".**

**...Jurnalist Şəlalə Məhyəddinqızı bildirmişdi ki, həmin yazını biz də Dövlət Radiosunun saytında paylaşdıq və qısa müddətdə 20 mindən çox "bəyənmə" gəldi. Bu, mənim və yazı müəllifinin hünəri yox, mərhum generala olan el məhəbbətinin göstəricisi idi. Məhz həmin general Qəbələ camaatına "Polad ürəkli insanlar" adı qazandırıb.**

### Dünya musiqiçiləri 14-cü dəfə Qəbələdə

Qəbələnin bu il böyük məsuliyyətlə hazırlaşıb, uğurla başa çatdırdığı beynəlxalq tədbirlərdən biri də Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə keçirilən dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş XIV Qəbələ Beynəlxalq Musiqi Festivalı idi. İyulun son günlərində başa çatan həmin festival bu dəfə də möhtəşəmliyi ilə musiqisevərlərin diqqətini Qəbələyə cəlb edə bilmişdi.

Musiqi ictimaiyyətinin təmsilçiləri və əcnəbi sənət adamları festival çərçivəsində Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin iştirakı ilə tamaşaçılara "Viva opera" konsert proqramı



təqdim etmişdilər. Əvvəlcədən elan edilmişdi ki, bu konsert görkəmli musiqi xadimləri Vasif Adıgözəlovun 90, Rauf Atakişiyevin 100 illik yubileylərinə həsr olunub.

### İyulun əvvəlində isə ...

Bəxt mənim həmin gün Qəbələdə olmağımı "təmin eləmişdi". İyulun 2-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Qəbələ – MDB-də Gənclər paytaxtı – 2025" beynəlxalq proqramının açılış mərasimi keçirilirdi. Xatırladaq ki, 2023-cü ildə MDB



Hökumət Başçıları Şurasının Daşkənddə keçirilən iclasında Qəbələ şəhəri 2025-ci ildə MDB-nin "Gənclər Paytaxtı" elan olunub.

Şəhərdəki Heydər Əliyev Konqres Mərkəzində təşkil olunan tədbirdə Gənclər və idman nazirinin müavini İndira Hacıyeva, MDB baş katibliyinin üzvü Tatyana Kovalevanın və rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin çıxışları maraqlı idi. Ancaq biz jurnalistlər üçün daha diqqətçəkən məqam Səbuhi müəllimin məlumat verdiyi başqa bir məsələ olmuşdu. Rayon rəhbəri demişdi ki, Qəbələ bu il həm də Azərbaycanda "İdman paytaxtı" seçilib. Doğrudan da, bütün bunlar fəxr edilməli faktlardır.

### 20 nəfər Qarabağ Universitetinə qəbul olunub

Ulu öndər Heydər Əliyev uşaqlar və gənclərlə istənilən görüşdə deyirdi ki, ölkəmizin sabahını siz quracaqsınız. Bunun üçünsə yaxşı oxumalı, savadlı olmalısınız. Həmin tezisi qəbələli abituriyentlərin builki qəbul imtahanlarında qazandığı nailiyyətlərlə tanış olanda xatırladım. Öyrəndim ki, bu il rayon üzrə 57 nəfər məzun qəbul imtahanlarında 600-dən yuxarı bal toplayıb.

Başqa bir faktda isə qeyd edilir ki, 2024-2025-ci tədris ilində rayonun ümumtəhsil müəssisələrini tam orta təhsil səviyyəsi üzrə bitirən 1210 nəfər məzundan 101 nəfəri fərqlənmə attestatına, 1 nəfəri qızıl nişana, 1 nəfəri isə gümüş nişana layiq görülüb. Buraxılış imtahanında 3 nəfər şagird maksimum nəticə göstərib. Ali məktəblərə sənəd verən 750 nəfər məzundan 584 nəfər ölkənin müxtəlif ali məktəblərinə, o cümlədən 20 nəfər Qarabağ Universitetinə qəbul olunub. 57 nəfər məzun qəbul imtahanlarında 600-dən yuxarı, 86 nəfər məzun isə 500-600 arası bal toplayıb.

### Həftənin I günü Zalamda, 2 gün sonra isə Tikanlıda ...

Səbuhi Abdullayev, sözün həqiqi mənasında, öz vəzifə borcunu kabinetdə oturaraq icra edən məmurlardan deyil. Rayonda o qədər beynəlxalq tədbirlərin keçirilməsinə baxmayaraq, icra başçısı hər həftə iki kənddə səyyar qəbul təşkil edir. Elə keçən həftənin əvvəli Zalamda, sonra isə Tikanlı kəndində keçirilmiş səyyar qəbulların arasında icra hakimiyyətinin binasında da vətəndaş qəbulu var idi. Bu bir daha təsdiq edir ki, rayonda sakinlərin problemləri daim diqqət mərkəzində saxlanılır, vətəndaşların sözü, səsi daim dinlənilir.

### Su gələn arxa bir də gələr, çaylara da həmçinin

İstənilən ictimai-siyasi məzmunlu fəaliyyətə, beynəlxalq tədbirlərə, festivallara baxmayaraq, Qəbələ ənənəvi kənd təsərrüfatı rayonudur. Bu il rayonun kümçüləri də özünəməxsus uğurlara imza atıblar, taxılçıları da, meyvəçiliklə məşğul olan fermerləri də. Yeri gəlmişkən, həmsöhbətim Nəriman dayı dedi ki, quraqlıqlara görə bu il fındıq məhsulu ötənilkindən az olacaq. Ancaq eybi yox, su gələn arxa bir də gələr, çaylara da həmçinin. Bu gün, sabah yağışlar başlayacaq, gələn il üçün bol məhsulun təməli qoyulacaq.

Həmsöhbətimin "yağışlar başlayacaq" deməsi bir şair dostumuzun qocalıqdan şikayətlə qələmə aldığı misraları yada saldı:

***Mən belə gözləmirdim,***
***Gözlərimə tül çökür,***
***Əllərim əldən düşür.***
***Mən də bir təbiətəm,***
***Təbiətdə qayda var –***
***Yay çox isti keçəndə***
***Payız qəfildən düşür.***

Nəriman dayı əlavə etdi:

– Bu il yay çox isti keçib. Demək, payız qəfildən gələcək, yenə yağışlar yağacaq, arxlar su ilə dolacaq, çaylar aşıb-daşacaq. Su isə aydınlıqdır, gələn ilin məhsulunun təməlidir.

Həmişə aydınlıqda, qonaq-qaralı olasan, Qəbələ!

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

**Qəbələ**



*Məhəmməd Əliyev – 70*

# Elm və təhsilə xidmətdə keçən ömür



**Azərbaycan Dövlət İqtisad Universiteti biznes və logistika kafedrasının müdiri, Əməkdar müəllim Məhəmməd Ələkbər oğlu Əliyevin anadan olmasının 70 illiyini ölkənin elm-təhsil ictimaiyyəti tarınmış iqtisadçı alimin şərəfli və məhsuldar ömür yolunun zirvəsi kimi sevgi-sayğı və qədirbilənliklə qeyd edir.**

Ömrünün 21 ilini ölkə iqtisadiyyatının müxtəlif sahələrində praktik fəaliyyətə, 20 ilini isə Azərbaycan ali təhsilinin və iqtisad elminin inkişafına həsr etmiş Məhəmməd Əliyev hər bir soydaşımıza örnək olası şərəfli bir ömür yaşayıb. Pedaqoq adına ucalıq və şərəf gətirmiş mərhum Ələkbər müəllimin və Bağdagül xanımın ailəsində boya-başa çatması, valideynlərinin şəxsi nümunəsi və zəhmətsevərliyi mühitində tərbiyələnməsi erkən yaşlarından Məhəmmədin qəlbində elmə, biliyə sonsuz həvəs oyatmışdır.

Naxçıvan Muxtar Respublikası Kəngərli rayonunun Qıvraq kənd məktəbindən başlanan həyat yolu Bakı şəhərində 1976–1980-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) ali təhsil, həmin elm və təhsil ocağında 2005-ci ildə namizədlik dissertasiyası müdafiə etməklə iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi, 2008-ci ildə isə dosent elmi adı alması ilə davam etmişdir. 1980–2001-ci illərdə ölkənin neft emalı və neft kimyası müəssisələrində iqtisadçı, baş iqtisadçı, sex rəisi, baş mühəndis, direktor müavini, Həmkarlar İttifaqları Komitəsinin sədri və direktor kimi məsul vəzifələrdə çalışarkən özünü yüksək dərəcədə səriştəli mütəxəssis və bacarıqlı təşkilatçı olaraq tanıdan Məhəmməd Əliyev respublikanın elmi-ictimai dairələrində, haqlı olaraq, böyük hörmət və nüfuz qazanmışdır.

Artıq 20 ildən çoxdur ki, iqtisadçı alim həyatını ölkəmizdə elm və təhsilin inkişafına həsr etməklə özünü cəmiyyətə vətənini ürəkdən sevən görkəmli iqtisadçı alim, zəngin dünyagörüşünə malik bacarıqlı müəllim, səmimi və qayğıkeş insan, layiqli ziyalı obrazı ilə tanıtmışdır. Onun ömür yolu zəhmətkeşlik, əzmkarlıq və peşəkar fəaliyyətində nümayiş etdirdiyi prinsipial mövqe ilə seçilmişdir. Alimin təhsil sahəsində zəngin təcrübəsi ona Azərbaycan Dövlət İqtisad Universitetində rəhbərlik etdiyi biznes və logistika kafedrasında yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsinə göstərdiyi xidmətdə və elmi uğurlar qazanmaqda yardımçı olmuşdur.

Məhəmməd Əliyev Azərbaycan neftinin dünya bazarlarına çıxarılması ilə bağlı strateji məsələlərə həsr olunmuş çoxsaylı tədqiqatların müəllifidir. Bu istiqamətdə qələmə aldığı 60-dan çox elmi məqalə, monoqrafiya, dərslik və dərs vəsaiti, habelə təşkilatçısı və ya iştirakçısı olduğu müxtəlif elmi-praktik konfranslarda və simpoziumlarda irəli sürdüyü qiymətli təkliflər ölkəmizin iqtisadi siyasətinin elmi əsaslarla möhkəmləndirilməsində və milli iqtisadiyyatın dayanıqlı inkişafında xüsusi əhəmiyyət kəsb edir. Respublikanın tanınmış iqtisadçı alimlərindən olan Məhəmməd Əliyev elmi fəaliyyətini bütünlüklə ölkəmizin iqtisadi siyasətinin, inkişaf və tərəqqimizin ayrı-ayrı elementlərinin tədqiqinə həsr edən, bu mövzuda ardıcıl olaraq müxtəlif səviyyəli elmi məclislərdə və nəşrlərdə çıxışlar edən istedadlı tədqiqatçılarımızdandır.

Məhəmməd Əliyevin elm və təhsil sahəsindəki xidmətləri nəinki ölkə daxilində, beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilərək çoxsaylı mükafatlara layiq görülmüşdür. 2015-ci ildə aldığı Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəxri fərmanları, 2016-cı ildə "Avropa Nəşr Mətbu Evi" mükafat komissiyasının qərarı ilə layiq görüldüyü "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı, 2018-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmri ilə verilmiş "Qabaqcıl Təhsil İşçisi" döş nişanı onun xidmətlərinin dəyərini ifadə edir. Alimin məhsuldar və önəmli fəaliyyəti ölkə rəhbərliyi tərəfindən də yüksək dəyərləndirilmiş, Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə ona "Əməkdar müəllim" fəxri adı verilmişdir.

Dövlətimizə və xalqımıza sadiq bir ziyalı kimi ulu öndər Heydər Əliyevin siyasi kursuna daim bağlı olmuş Məhəmməd Əliyev bu gün həmin siyasətin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətə elmi dəstək qazandırmaqla iqtisadi yüksəlişə xidmət göstərir. Ölkəmizin ən güclü və ən nüfuzlu siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının üzvü kimi o, siyasi proseslərin ön cəbhəsindədir.

Alimin rəhbərlik etdiyi biznes və logistika kafedrası uzun müddətdir Azərbaycan Respublikasının Auditorlar Palatası ilə sıx əməkdaşlıq edir. Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsinə görə ona qurumun "Fəxri üzvü" statusu verilmişdir.

Azərbaycanın beynəlxalq nəqliyyat-logistika mərkəzlərindən birinə çevrildiyi çağdaş dövrdə Məhəmməd Əliyev bu tarixi uğurun mahiyyətini, ölkəmizə gətirdiyi misilsiz siyasi və iqtisadi dividendləri xalqımıza çatdırmaq üçün respublika mediasında davamlı olaraq aktual mövzularla çıxışlar edir. Onun "Xalq qəzeti"nin logistika eksperti olaraq, bu nəşrdə dərc edilən analitik yazılarında, rəy və təkliflərində Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinin fəaliyyəti, Zəngəzur yolunun açılması ilə bağlı dünyanın maraqlı dövlətlərinin, strateji və logistik mərkəzlərinin yeritdikləri siyasət, sərgilədikləri mövqelər şərh olunur. Bu təhlillərdə ölkəmizin mənafeyi diqqətlə izlənilir, yanlışlıqlardan və manеələrdən yan keçmək üçün mötəbər mütəxəssis mülahizələri əksini tapır.

Məhəmməd müəllimin ölkənin nəqliyyat şəbəkəsinin modernləşdirilməsi, Qarabağın dağıdılmış yol infrastrukturunun bərpası, daxili və qlobal daşımaların iqtisadi səmərəliliyinin təmin edilməsi kimi mövzularda mətbuatda işıq üzü görən yazıları da onu dərin bilikli logistika mütəxəssisi, ölkənin təqqisinə zəkası və vətənpərvərliyi ilə xidmət edən ziyalı kimi sevdirir. Bu geniş maarifləndirmə-izahat fəaliyyəti Məhəmməd müəllimin nəzəri tədqiqatlarının praktik istiqamətlərinin ölkənin nəqliyyat şəbəkəsinə fayda gətirməsinə, sahənin ümumu uğurlarına elmi və informasiya dəstəyi qazandırılmasına önəmli təsir göstərir.

Əminik ki, Məhəmməd Əliyevin zəngin həyat və fəaliyyət yolu gənc nəslin maarifləndirilməsində, onların Vətənə və dövlətə sədaqət ruhunda yetişdirilməsində mühüm nümunə olacaq. Onun bu gün də ictimaiyyət tərəfindən böyük ehtiramla qarşılanan bilik və təcrübəsi, nüfuzlu mövqeyi müstəqil dövlət quruculuğuna, milli dəyərlərimizin qorunmasına və iqtisadi mühitin inkişafına xidmət etməyə yönəlib.

Ömür yolunun 70-ci pilləsini arxada qoyduğu bu günlərdə Məhəmməd Əliyevi – Azərbaycan Dövlət İqtisad Universitetinin çoxsaylı kollektivi adından əlamətdar yubileyi münasibətilə səmimi təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik, elmi-pedoqoji və təşkilati işlərində yeni uğurlar arzu edirik.

***Ziyad SƏMƏDZADƏ,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik***

***Vahid NOVRUZOV,***
***Auditorlar Palatasının sədri,***
***iqtisad elmləri doktoru, professor***

# Naxçıvanın bilik yarışı qalibləri





**Dünən Naxçıvanın Heydər Əliyev Sarayında muxtar Respublikanın ümumtəhsil məktəbləri üzrə ali təhsil müəssisələrinə qəbul imtahanında yüksək bal toplamış tələbələrlə görüş keçirilib.**

Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bilik yarışında böyük nailiyyətlər qazanan gəncləri səmimi-qəlbdən salamlayıb, ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə göstərən, eləcə də tələbə adını qazanan bütün məzunları, onların valideynlərini təbrik edib, müəllimlərinə təşəkkürünü bildirib.

Səlahiyyətli nümayəndə qeyd edib ki, ötən tədris ilində muxtar respublikada 4 min 752 şagird ümumi orta, 3 min 992 şagird tam orta təhsili uğurla başa vurub. 4 şagird qızıl nişana, 281 şagird isə fərqlənmə attestatına layiq görülüb. Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində 396 məzun 500–700, o cümlədən 291 nəfər 500–600, 77 məzun 600–650, 28 şagird isə 650–700 intervalında bal toplayıb. Ötən illə müqayisədə yüksək nəticə göstərən məzunların sayı 16 faiz artıb. Bu da muxtar respublikada son 30 ildə əldə olunan ən yüksək göstəricidir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov 2025-ci ilin Naxçıvan təhsili üçün ən uğurlu illərdən biri olduğunu vurğulayıb. Nazir bu il ilk məzun buraxılışı olan Naxçıvan Dövlət Universitetinin gimnaziyasını uğurlu nəticə münasibətilə təbrik edərək deyib ki, gimnaziyanı 36 məzun bitirib. Onlardan 16-sı 500-700 intervalında bal toplayıb. Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin şagirdi Nərmin Əliyeva ABŞ və digər ölkələrin universitetlərinə qəbul üçün keçirilən beynəlxalq SAT imtahanı üzrə 1600 ballıq sistemdən 1580 bal nəticə göstərərək ölkə birinciliyi və dünya üzrə ən yüksək nəticə göstərən 1 faizlik tələbə siyahısına daxil olub.

Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin məzunu Oruc Rəhimlinin anası Səfurə Hüseynova övladlarının əldə etdiyi nailiyyətlərin ölkə başçısının təhsilə göstərdiyi diqqət və gənclərimizə yaratdığı imkanların bariz nəticəsi olduğunu deyib, ölkə başçısına bütün valideynlər adından minnətdarlığını bildirib.

Ali məktəblərə keçirilən qəbul imtahanlarında 690 bal toplayaraq muxtar respublika birincisi olan Naxçıvan Qızlar Liseyinin məzunu Sehrin Cəfərova əmin edib ki, ölkəmizin inkişafına töhfə verən savadlı, bacarıqlı, əzmkar və vətənpərvər gənclik nümunəsi olacaqlar.

Tədbirdə 500-700 intervalında nəticə əldə etmiş məzunlar mükafatlandırılıb.

***Səbuhi HƏSƏNOV***

# Riyaziyyat və mexanikanın müasir problemləri




**Dünən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun təşkilatçılığı ilə "Riyaziyyat və mexanikanın müasir problemləri" adlı XII Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.**



Mərasimi giriş nitqi ilə açan Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov qonaqları salamlayaraq riyaziyyat və mexanikanın müasir elm və texnologiyadakı rolu haqqında geniş məruzə ilə çıxış edib. O bildirib ki, bu kimi beynəlxalq tədbirlər elm adamları arasında əməkdaşlığın möhkəmləndirilməsi, təcrübə və ideya mübadiləsinin təşviqi baxımından mühüm əhəmiyyətə malikdir. Misir Mərdanov çıxışında Azərbaycanda riyaziyyat elminin tarixini və bu sahənin müasir mərhələlərini də ətraflı təhlil edib.

Konfransda Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Rasim Əliquliyev riyaziyyat fənninin tədrisi və elmi tədqiqatlarda tətbiqi ilə bağlı bir sıra vacib məsələlərə toxunub. Alim qeyd edib ki, müasir dövrdə riyaziyyat yalnız fundamental elm sahəsi kimi deyil, həm də süni intellekt, informasiya texnologiyaları, iqtisadiyyat, mühəndislik və digər sahələrdə əsas metodoloji baza kimi çıxış edir. Bu baxımdan, riyaziyyatın daha geniş auditoriyaya, xüsusilə də müxtəlif sahələr üzrə fəaliyyət göstərən mütəxəssislərə düzgün və sistemli şəkildə öyrədilməsi mühüm zərurətə çevrilib.

Konfrans çərçivəsində Qazaxıstan Milli Elmlər Akademiyasının akademiki Maksad Kalimoldayev çıxış edərək riyaziyyat elminin müasir çağırışları və elmi innovasiyaların əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Açılış mərasimindən sonra konfrans öz işini plenar sessiyalar və tematik seksiyalarla davam etdirib.

Qeyd edək ki, üç gün davam edəcək konfransda 10-dan artıq ölkədən tanınmış alimlərin iştirakı ilə məruzələr təqdim olunacaq, həmçinin gənc tədqiqatçılar üçün elmi seminarlar və panel müzakirələri keçiriləcək.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Alman qonaqlar İlahiyyat İnstitutunda

**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) Almaniyanın Əsas Dəyərlər və Xalqlararası Anlaşma Fondunun nümayəndə heyəti ilə görüş keçirilib.**



Qonaqları salamlayan rektor, dosent Aqil Şirinov ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Tədris prosesinin ölkəmizdəki mövcud tolerant, multikultural mühit nəzərə alınmaqla təşkil edildiyini, ali təhsil ocağında bakalavriat, magistratura və doktorantura pillələrinin mövcud olduğunu vurğulayan ali məktəb rəhbəri AİI-də təhsilin tamamilə ödənişsiz həyata keçirildiyini qeyd edib. O, institutun ilahiyyat sahəsində tanınmış xarici ölkə universitetləri ilə beynəlxalq əlaqələrin qurulmasında maraqlı olduğunu bildirib.

Almaniya heyətinin rəhbəri Erix Alfred Tilo Braun görüşdən məmnunluğunu ifadə edib. Ölkəmizdə mövcud tolerant, multikultural mühiti və bu istiqamətdə aparılan siyasəti yüksək qiymətləndirib. Qonaq, müxtəlif məzhəb nümayəndələrinin eyni məsciddə ibadət etmələrinin nümunəvi addım olduğunu və bu təcrübənin bütün dünyada təşviq edilməsinə ehtiyac duyulduğunu bildirib.

***Mehparə ƏLİYEVA***
***XQ***

# Təhsilin özəl bölmə ilə əməkdaşlığı

**Sentyabrın 3-də Təhsilin İnkişafı Fondu və İş adamları Cəmiyyətinin Milli Assosiasiyasının (İCMA) birgə keçirdiyi görüşdə dövlət-özəl əməkdaşlığının genişləndirilməsi, eləcə də təhsil və gənclərin inkişafı sahəsində əməkdaşlıq imkanları müzakirə edilib.**



Təhsil Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildirilib ki, Azərbaycan Texniki Universitetinin nəzdində yerləşən Davamlı İnkişaf Mərkəzində təşkil edilən müzakirədə İCMA-ya üzv və "Marsol Group"a daxil olan şirkətlərin nümayəndələri də iştirak ediblər.

Məclisi açıq elan edən Təhsilin İnkişafı Fondu İdarə Heyətinin sədri Elnur Nəsibov fondun sahibkarlıq subyektləri ilə əməkdaşlığının təhsil sektoruna gətirəcəyi faydalardan, dövlət–özəl tərəfdaşlığının əhəmiyyətindən söz açıb. O, yeni imkanların yaradılmasına və təhsilin əmək bazarının tələblərinə uyğun inkişafına xidmət etməsinə diqqət çəkib.

Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev ali məktəblərlə özəl sektor arasında qurulan əlaqələrin təhsil prosesinin keyfiyyətinin artırılmasındakı müsbət rolundan danışıb.

İCMA-nın İdarə Heyətinin sədri və "Marsol Group"un təsisçisi Tural Mustafayev özəl sektorun təhsilə dəstəyinin əhəmiyyətini qeyd edib.

Görüş çərçivəsində fondun ümumi fəaliyyət istiqamətləri, xüsusilə TələbəPlus kartı və Qarabağ Təqaüd Proqramı barədə təqdimatlar keçirilib.

Sonda Təhsilin İnkişafı Fondu ilə İCMA arasında Əməkdaşlıq Memorandumu imzalanıb. İştirakçılar üçün İT təhsil layihəsi olan "Peerstack Academy", eləcə də Kitabxana İnformasiya Mərkəzinə infotur təşkil olunub.

***Ləman TƏHMƏZ***
***XQ***

Qayıdışın yeni ünvanı

# Xıdırlı, biz də qayıtdıq!




## Ağdamın bu tarixi kəndində həyat yenidən canlanır

**Ağdamda Böyük Qayıdışın ilk ünvanlarından olan Xıdırlı kəndinin rahat, asfalt örtüklü küçələri ilə irəlilədikcə, buraya, təxminən, bir il əvvəl, 2024-cü ilin sentyabr ayında "Prezidentin izi ilə" olan səfərimi xatırladım. İndi ətrafda Qarabağın dirçəlişinin qürurverici mənzərəsi kimi göz oxşayan yeni yaşayış evlərinin, yaraşıqlı məktəb və uşaq bağçasının, müxtəlif təyinatlı binaların bir qisminin yeri həmin vaxt böyük tikinti meydançasını xatırladırdı.**



Hər yerdə əzəli sakinlərinin doğma yurdlarına əbədi qayıdışlarına ciddi hazırlıq gedirdi. Ustalar, fəhlələr dayanmadan işləyirdilər, çoxsaylı tikinti texnikalarının zəfər marşını andıran səsləri aləmi götürmüşdü. İndi isə böyük amal uğrunda "savaş"ın uğurlu nəticələri göz önündədir. İşğal dövründə erməni vandalizminin qurbanına çevrilmiş, daşı daş üstdə qalmamış Xıdırlıda qısa müddətdə belə müasir kənd salınıb. Həmin vaxt yaşayış evləri ilə tanışlıq zamanı tək bir şeyin çatışmadığı haqqında düşünmüşdüm – bu gözəl təmirli, yaraşıqlı evləri isidəcək insan nəfəsi, şənləndirəcək körpə gülüşü... Çox şükür, artıq 2 aya yaxındır ki, Xıdırlıya həyat qayıdıb. Kənd gecələr gur işıqlara qərq olur, evlərin odu-ocağı qalanır! Elə budəfəki səfərimizin də məqsədi yeni Xıdırlının yeni növrağı ilə tanış olmaqdır...

### Xoş gördük, yeni Xıdırlı!

Ağdam şəhərinin şimal-qərbində, rayon mərkəzindən 3 kilometr məsafədə yerləşən yeni Xıdırlının təməli 2022-ci il oktyabrın 4-də qoyulub. Mərasimdə işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin gedişini hər zaman xüsusi diqqətdə saxlayan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəsmi məlumatına görə, kəndin layihələndirilən ərazisinin sahəsi 417 hektardan çoxdur. Burada 1-ci və 2-ci mərhələ üzrə 1498 fərdi evin inşası, həmin evlərə 6 minə yaxın əhalinin köçürülməsi nəzərdə tutulur.

Birinci mərhələ üzrə layihələndirilən ərazinin sahəsi 170.44 hektardır. Bu mərhələdə kəndə 719 ailənin, ümumilikdə 2951 nəfərin köçürülməsi planlaşdırılır. Artıq sözügedən sayda fərdi evin inşası həyata keçirilib ki, onlardan da 263-ü iki, 332-si üç, 121-i dörd, 3-ü isə beşotaqlıdır. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq bu günə qədər Xıdırlı kəndində 1359 nəfər sakindən ibarət 360 ailə daimi məskunlaşdırılıb, keçmiş məcburi köçkünlərin qayıdışı prosesi davam etdirilir.

### Böyük Qayıdışa qardaş töhfəsi

Kənddə, yuxarıda qeyd etdiyimiz kimi, zəruri müasir infrastruktur yaradılıb, o cümlədən inzibati və xidmət binaları tikilib. Burada çoxfunksiyalı inzibati binanın, klub-icma mərkəzinin, tibb məntəqəsinin, təcili tibbi yardım bölməsinin, təhsil və səhiyyə işçilərinin müvəqqəti yaşayışı üçün qonaq evinin, məişət xidməti obyektinin, emalatxananın, tam orta məktəbin, körpələr evi-uşaq bağçasının inşası həyata keçirilib. Kəndin ərazisinin təxminən 20 faizi yaşıllaşdırılıb.

Yolumuz ağdamlılara Qırğızıstan Respublikasının hədiyyəsi olan Aykol Manas adına Xıdırlı kənd tam orta məktəbinin yanından keçir. Məktəbin qarşısında qələbəlikdir, ilk təhsil ilinə hazırlıq gedir. Öyrəndik ki, 528 şagird yerlik məktəb binası 5 blokdan, o cümlədən idman zalı bölməsindən ibarətdir. Ərazisi 2,7 hektar olan binada 21 sinif, 2 məktəbəqədər hazırlıq, 2 informatika, 2 texnologiya, 1 hərbi hazırlıq otağı, həmçinin 3 laboratoriya, kitabxana, idman və akt zalları, yeməkxana fəaliyyət göstərəcək. Təhsil müəssisəsinin maddi-texniki bazası şagirdlərin biliklərə yüksək səviyyədə yiyələnmələri üçün hərtərəfli imkana malikdir. Məktəbin ərazisində həm şagirdlərə, həm də əhaliyə xidmət göstərəcək qaçış zolağı olan geniş idman meydançası, oyun və istirahət sahələri də inşa edilib. Bir sözlə, doğma yurdlarına geri dönmüş ailələrin övladlarını savadlı, sağlam, vətənpərvər yetişdirmələri üçün burada qardaş Qırğızıstan dövləti tərəfindən hər cür şərait yaradılıb.



### Yenidən ata-baba yurdunda

Xıdırlıya yolunuz düşsə, mütləq Bayraq meydanına da baş çəkməyi unutmayın. Çünki buradan həm kəndin gözəl mənzərəsini seyr edə biləcək, həm də başınız üstə məğrur-məğrur dalğalanan müqəddəs bayrağımızın fonunda külündən doğulan Ağdamda yan-yana ucaldılan tikililəri – yeni şəhəri görəcəksiniz. Bu yüksəklikdən baxanda, el arasında deyilən kimi, Ağdam sanki ayaqlarının altında qalır...

Bayraq meydanı ilə tanışlıqdan sonra 104 b nömrəli evə yollandıq. Ev sahibi Ehtibar Süleymanovla görüş üçün əvvəlcədən zəngləşib razılaşmışdıq. Bizi qapıda qarşılayaraq içəri dəvət etdi. Gəlişimizi eşidən qonşusu Ərəstun Hüseynov da bizə qoşuldu. Üçotaqlı evlə tanışlıq zamanı Xıdırlıda sakinlərin rahat yaşamaları üçün hər şeyin nəzərə alındığına bir daha əmin olduq. Tam təmirli otaqlar, hamam, sanitar qovşağı, işıq və istilik sistemi, daimi su, sürətli internet... Evlərin tavanının hündür olması ilk baxışdan diqqətimizi çəkdi, "Qışda isitmək çətin olmayacaq ki?", - deyə soruşduq. Ev sahibi gülərək cavab verdi ki, 3 metr 40 smdir, ancaq ikitərəfli izolyasiya edilib, yayda sərin olur, qışda isti. Beləcə, xoş əhvali-ruhiyyəli söhbətimizə başladıq. Öyrəndik ki, Süleymanovlar ailəsi işğaldan əvvəl də Xıdırlıda yaşayıb, indi kəndə ilk qayıdanlardandır.

**Evlərinin açarını Azərbaycan Prezidentinin şəxsən təqdim etməsi isə onların həyatlarının ən əlamətdar hadisəsidir. E. Süleymanov həmin anı heç vaxt unutmayacaqlarını bildirdi:**

– Xıdırlıdan çıxanda gənc ailə idik, 25 yaşım vardı. Məcburi köçkün kimi sonuncu dəfə Sumqayıt şəhərində 14 kvadratmetrlik yataqxana otağında məskunlaşmışdıq. Təkcə bu fakt uzun illər hansı əziyyətlər çəkdiyimizi göstərir. İyul ayında isə bütün həyatımız dəyişdi. Həm Vətən həsrətimiz bitdi, həm saray kimi evlə təmin olunduq. Ən möhtəşəmi də odur ki, evimizin açarlarını möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız özü şəxsən təqdim etdi *(qürurla içində evin açarının da olduğu dəsti göstərir – M.R.)*. Bu, sözlə ifadə ediləcək hiss deyil...

Anam, həyat yoldaşım və oğlumla geri qayıtmışıq. Bir qızım, 2 nəvəm da var, qızım laçınlı ilə ailə həyatı qurub, onlar da, inşallah, Laçına qayıdacaqlar!

### "Bu yerləri cənnətə çevirəcəyik!"

**Evin xanımı Mehparə Süleymanova isə Xıdırlıda keçən hər günləri üçün Allaha şükürlər etdiyini dedi:**

– Bu yaşadıqlarımız sanki şirin bir yuxudur. Allah bizə bu duyğuları bəxş edən, bizi öz ata-baba yurdumuza qaytaran Prezidentimizi qorusun, pənahında saxlasın! Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Yenidən kəndimizə qayıtmaq, burada yaşamaq böyük xoşbəxtlikdir!

Ev sahiblərinin qonşuları, 70 yaşlı Ə.Hüseynov da Xıdırlının əzəli sakinidir. Bildirdi ki, doğma kəndlərinə qayıdandan bütün dərdləri unudub, ağrı-acıları canlarından çıxıb. Bundan sonra isə...

Bundan sonrasına keçməmişdən qeyd edim ki, mənim evimin açarını Qırğızıstan Prezidenti Sadır Japarov təqdim edib. Sonra da həm onunla, həm də cənab Prezidentimizlə birlikdə şəkil çəkdirmişəm. Belə xoş anı yaşamaq dünyada az-az insana qismət olar!

İnsan doğulanda ilk ayaq basdığı torpağa, havasını udduğu yurda ölənə kimi bağlı olur. Biz indi həmin torpaqdayıq. Bundan sonra bizim ən böyük vəzifəmiz əkib-becərmək, qurub-yaratmaqdır. Camaatımız qocaq camaatdı, Xıdırlını cənnətə çevirəcəyik!

Çayımızı içib sağollaşmaq, səfərimizi yekunlaşdırmaq üçün bayıra çıxanda üzbəüz qonşunun həyətində qısa müddətdə gördüyü işlər diqqətimizi çəkdi. Gələn gündən 12 sotluq həyətyanı sahəsində yaşıllıq salmağa başlayan, yayın istisinə meydan oxuyaraq ilin-günün bu vaxtı lobya yetişdirən, tövlə tikib mal-qara saxlayan Dilavər Şirinovla ayaqüstü söhbət əsnasında əmin olduq ki, həqiqətən xıdırlılılar tezliklə onsuz da gözəl olan bu kəndi daha da gözəlləşdirəcəklər. Tezliklə həyətlər daha yaşıl, Xıdırlı daha cazibədar olacaq. Çünki bu torpaqlara əsl sahibləri qayıdıblar!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Ağdam**

**P.S.** Yazının hazırlanmasına göstərdikləri köməyə görə Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşlarına təşəkkür edirik.

---

**Bu günlərdə ABŞ Prezidenti Donald Trampın milyarder Corc Sorosa qarşı cinayət işinin açılması ilə bağlı çağırışı Vaşinqtonun daxili siyasi gündəmini daha da qızışdırıb. Tramp Sorosu hökumətə qarşı etiraz hərəkatlarını maliyyələşdirməkdə ittiham edib və onu ABŞ dövlətçiliyinə zərbə vurmaqda günahlandırıb. Ölkə liderinin sərt ritorikasında Soros və onun fondu barədə təhqiredici ifadələrin işlədilməsi isə məsələnin qarşıdurma müstəvisinə keçdiyini göstərir.**

Əslində, yaxın keçmişdə baş verən hadisələrə nəzər yetirsək, görərik ki, Tramp hələ seçkiöncəsi təşviqat kampaniyalarında Soros mövzusuna toxunmuşdu. Bu da təsadüfi deyil. Çünki uzun illər ABŞ-da, eləcə də Qərbin siyasi dairələrində Sorosun fəaliyyəti ətrafında mübahisələr gedirdi. Xüsusilə 2018-ci ilin payızında Brett Kavanonun Ali Məhkəmə hakimi vəzifəsinə təyinatı ilə bağlı qalmaqal qarşıdurmanın açıq şəkildə görünən məqamlarından biri idi. O zaman Donald Tramp bəyan etmişdi ki, Soros Fondu Kavanoya qarşı etirazları maliyyələşdirib. Sonradan məlum oldu ki, bu etirazları təşkil edən bir neçə qrup həqiqətən də "Açıq Cəmiyyət Fondu"ndan maliyyə alıb. Digər bir diqqətçəkən məqam ondan ibarətdir ki, D.Tramp Sorosu həm fərdi səviyyədə, həm də respublikaçı ideologiyanın qarşısında duran güc mərkəzi kimi görür. Sorosun maliyyə dəstəyi verdiyi təşkilatlar və şəbəkələr isə ABŞ siyasi mühitində "solçu gündəmin" əsas aparıcı qüvvələrindən sayılır.

# "Xaos sponsoru" iflas astanasında

## Məkrli ssenarilər üzərində qurulan oyunların sonu yaxınlaşır



Sorosçuların təsir dairəsi təkcə ABŞ-la məhdudlaşmır. 2017-ci ildə Konqresdə respublikaçılar Şərqi Avropada da Sorosun fəaliyyətinə qarşı mövqelərini sərtləşdirmişdilər. Konqresmen Kris Smit və senator Mayk Li dövlət katibi Reks Tillersona müraciət edərək Soros Fondu vasitəsilə Şərqi Avropada siyasi balansın pozulduğunu bildirmişdilər. Qanunvericilər iddia edirdilər ki, Sorosun təşəbbüsləri ABŞ-ın müstəqil qurumu sayılan USAID tərəfindən maliyyələşdirilir. Hətta ABŞ-ın Makedoniyadakı səfiri də açıq şəkildə solçu siyasi qrupların xeyrinə proseslərə müdaxilədə ittiham olunmuşdu. Respublikaçılar Dövlət Departamentindən Balkanlarda Soros şəbəkəsinə yönələn yardımla bağlı hesabat da tələb etmişdilər. Bu qarşıdurma cari ildə yeni mərhələyə qədəm qoydu. Hakimiyyətə qayıdan Donald Tramp fevral ayında USAID-i "saxtakarlıq və korrupsiya mənbəyi" adlandırdı.

Cari il iyulun 1-dən agentliyin fəaliyyətinin dayandırılması qərarı verildi. Sözügedən addım respublikaçıların uzun müddətdir tələb etdikləri siyasətin praktiki nəticəsi idi və Soros şəbəkəsinin maliyyə mənbələrini məhdudlaşdırmaq məqsədi daşıyırdı. Lakin qarşıdurma bitmədi. Əksinə, Sorosun dəstəklədiyi solçu təşkilatlar Tramp əleyhinə aksiyalar üçün 20 milyon dollardan artıq vəsait topladılar. Xüsusilə "Community Change" və "Community Change Action" təşkilatları Ağ Evin qarşısında 150 etirazçı toplayaraq prezidentin qərarlarına qarşı çıxmış və həmin illərdə Sorosdan külli miqdarda maliyyə mənimsəmişdilər. Təkcə 2023-cü ildə isə bu iki təşkilat "Açıq Cəmiyyət Fondu"ndan 4 milyon dollar ianə almışdılar. Bütün bu faktlar Trampın narahatlığının əsasını təşkil edir və göstərir ki, tərəflər arasındakı savaş artıq ölkədaxili müstəvidən çıxaraq qlobal miqyasda ideoloji savaşa çevrilib. Qeyd etmək vacibdir ki, Tramp tənqidlərinin hədəfini yalnız Corc Sorosla məhdudlaşdırmır, eyni zamanda onun oğlu Aleks Sorosu da ön plana çıxarır. Aleks Soros son illərdə Demokrat Partiyasına yaxınlığı ilə seçilir və ABŞ siyasətində təsir imkanlarını sürətlə genişləndirir.

Ümumiyyətlə, Soros Fondu müxtəlif ölkələrdə "xaos sponsoru" kimi fəaliyyət göstərib. Qərbin siyasi dairələrində belə qəbul olunur ki, fond müxtəlif regionlarda rəngli inqilabların təşkilatçısı və maliyyə dəstəkçisi rolunda da çıxış edib. Təsadüfi deyil ki, Corc Soros bəzi dövlətlərdə arzuolunmaz şəxs elan olunub, onun fondu isə fəaliyyətini dayandırmaq məcburiyyətində qalıb. Məsələn, Macarıstan hökuməti Sorosu milli təhlükə kimi qiymətləndirərək 2018-ci ildə fondun Budapeştdəki ofisini bağladı. Ölkənin Baş naziri Viktor Orban açıq şəkildə bəyan etdi ki, Sorosun miqrasiya siyasəti Avropa dövlətlərinin suverenliyinə təhdid yaradır və milli dövlətləri zəiflətməyə xidmət edir. Balkanlarda da Sorosun təsirinə qarşı ciddi müqavimət formalaşmışdı. Xüsusilə Makedoniyada 2017-ci ildən "Stop Operation Soros" (SOS) adlı ictimai hərəkat yarandı və onun daxili siyasətə müdaxilə cəhdləri ifşa edildi. Polşada isə fondun fəaliyyəti rəsmi şəkildə qadağan edilməsə də, hakimiyyət nümayəndələri Sorosu ölkə siyasətinə müdaxilə etməkdə və "liberal xaosun yayılmasına" zəmin yaratmaqda ittiham edirlər. Qardaş Türkiyədə də fondun fəaliyyəti dayandırılıb. Prezident Rəcəb Tayyib Ərdoğan açıq şəkildə bəyan etdi ki, Soros Gezi Parkı iğtişaşlarının əsas maliyyəçisi olub və ölkədə xaos yaratmaq niyyəti güdüb: "Soros xalqı parçalamaq və Türkiyənin sabitliyini pozmaq istəyən qlobal güclərin alətidir". Bu səbəbdən fondun Türkiyədəki bütün layihələri ləğv edildi və ölkədən çəkilməyə məcbur oldu.

Sorosun fəaliyyətinin ziddiyyətli nəticələri Azərbaycanda da özünü büruzə verib. 2011-ci ildə korrupsiya faktları səbəbindən "Açıq Cəmiyyət Fondu" ölkəmizdə bağlanıb. Şübhəsiz, məsələ yalnız maliyyə pozuntuları ilə yekunlaşmırdı. Fondun ölkədə müxalifətçi qrupları dəstəklədiyi və müxtəlif QHT-lərə milyonlarla dollar maliyyə ayırdığı məlum idi. Bundan başqa, Soros Fondu Azərbaycana qarşı informasiya hücumlarının da əsas maliyyə mənbələrindən biri olub. Qərbin bir sıra media orqanlarında aparılan çirkin kampaniyalar məhz onun şəbəkəsi ilə bağlıdır. Bağlandıqdan sonra fondun USAID kanalı ilə Azərbaycandakı vəziyyətə müdaxilə cəhdləri iflasa uğradı. Çünki dövlət həm milli təhlükəsizlik baxımından, həm də ictimai sabitliyi qorumaq istiqamətində vaxtında tədbirlər gördü. Bu gün Soros Fondu və onun dayaqları arzuolunmaz strukturlar kimi tanınır və qadağan olunur. Sadalanan faktlar göstərir ki, Corc Sorosun təsir imkanları qlobal miqyasda ciddi şəkildə zəifləməkdə davam edir.

***Nəzrin ELDARQIZI***
***XQ***

**Ekspert rəyi**



***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

Prezident Donald Trampın Corc Soros və onun oğlu Aleks Sorosun RICO Aktı (mütəşəkkil cinayətkarlığa qarşı qanun) əsasında ittiham olunmasının zəruriliyini bildirməsi, onları ABŞ-da baş vermiş zorakılıq aksiyalarını dəstəkləməkdə günahlandırması, əslində, Soros üçün taleyin ironiyasıdır. Çünki Soros Fondu özü uzun illər OCCRP adlanan şəbəkəni, yəni "Mütəşəkkil cinayətkarlığa və korrupsiyaya qarşı hesabat layihəsi"ni maliyyələşdirib. Bu şəbəkəni maliyyə ilə şirnikləşdirərək OCCRP-nin tərkibində birləşən jurnalistləri, media qurumlarını, QHT-ləri ayrı-ayrı siyasi liderlərə qarşı qərəzli şəkildə yönləndirib. Hədəfində olan şəxsləri "korrupsiya və cinayətkarlıq yolu ilə kapital qazanmaqda" ittiham edib. Amma hər kəs bilirdi ki, OCCRP və Sorosun "korrupsioner, cinayətkar" adlandırdığı şəxslər, əslində, "Soros İmperiyası"nın siyasi-iqtisadi hədəfinə tuş gələnlərdir. Onları şərləyib qaralamaqla Soros öz rəqiblərini zərərsizləşdirir.

Bu məsələ uzun illər dünyanın siyasi gündəmində yer tutub. Amma ABŞ Demokratlar Partiyası ilə müttəfiq olduğu üçün Soros Fondunun əsl simasını göstərmək, onu zərərsizləşdirmək çətin bir məsələyə çevrilmişdi. Əlamətdar haldır ki, bu gün Prezident Tramp Soros Fondunun iç üzünü açır, onun əsl qiymətini verir. Araşdırmalar başlayandan sonra, yəqin ki, USAID kimi Soros Fondunun da bütün mahiyyəti ortaya çıxacaq. Soros tərəfdarlarının narahatlıq içində olmaları bununla bağlıdır. Onlar bilirlər ki, Tramp komandası fondun bütün zərərli fəaliyyətini faktlarla ortaya qoyacaq, sonra da məsuliyyət tələb edəcək.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 187 (30881) 4 sentyabr 2025-ci il, cümə axşamı



# Təhsil geosiyasəti: Yumşaq gücün güclü aləti

**Beynəlxalq tələbə bazarı son onilliklərdə sürətlə böyüyərək yalnız təhsil deyil, həm də iqtisadiyyat və diplomatiya baxımından strateji sahəyə çevrilib. Beynəlxalq statistik məlumatlara görə, hazırda dünya üzrə 6 milyondan artıq tələbə öz ölkəsindən kənarda təhsil alır və bu rəqəm hər il artır. Ənənəvi liderlər - ABŞ, Böyük Britaniya, Kanada, Avstraliya və Almaniya - tələbələrin əsas hədəf ölkələri olaraq qalır. Bu ölkələr dünya reytinqli universitetləri, yüksək səviyyəli tədqiqat infrastrukturunu və təhsilsonrası karyera imkanlarını təklif etməklə bazarın cəlbediciliyini saxlayırlar.**

Bu günlərdə Türkiyə Ali Təhsil Şurasının (YÖK) rəhbəri Erol Özvar bildirib ki, ali təhsil müəssisələrində təhsil alan xarici vətəndaşların sayına görə Türkiyə dünyada yeddinci yerdədir. Xarici tələbələrin Türkiyə iqtisadiyyatına töhfəsi ildə 3 milyard dollar dəyərində qiymətləndirilir. Onun sözlərinə görə, bu gün Türkiyədə dünyanın 198 ölkəsindən, təxminən, 350 min nəfər təhsil alır. Türkiyə nümunəsi göstərir ki, qardaş ölkə əcnəbi təhsil bazarının gücləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atır.

Ümumiyyətlə, beynəlxalq tələbələrin rolu yalnız təhsil sektoru ilə məhdudlaşmır: onlar iqtisadi gəlir, sosial inteqrasiya, işçi qüvvəsinin yenilənməsi və "yumşaq güc" siyasəti baxımından da vacibdirlər. Təkcə ABŞ-da onların iqtisadiyyata töhfəsi 50 milyard dollardan çox qiymətləndirilir. Avstraliya üçün bu rəqəm 2024-cü ildə 51,5 milyard dollar, Böyük Britaniya üçün isə 40 milyard funtdan artıq olub.

Tələbələrin ölkə seçimini müəyyənləşdirən əsas amillər sırasında təhsilin keyfiyyəti və diplomun tanınması mühüm yer tutur. Harvard, Oksford, MIT, Kembric kimi universitetlər beynəlxalq tələbələr üçün ən cəlbedici məkanlar olaraq qalır və onların diplomları qlobal əmək bazarında həlledici üstünlük qazandırır. Geosiyasi sabitlik, sosial mühitin təhlükəsizliyi və tolerantlıq da mühüm meyarlardandır. Siyasi qeyri-müəyyənlik yaşayan ölkələrdə tələbə axınında azalma müşahidə edilir.

Təhsilsonrası imkanlar da seçimlərə ciddi təsir göstərir. Bir çox tələbə təhsildən sonra işləmək və daimi yaşamaq imkanı olan ölkələrə üstünlük verir. Kanada və Avstraliya bu baxımdan liberal siyasətləri ilə beynəlxalq tələbələri gələcək işçi qüvvəsinə çevirməyi hədəfləyir. Viza prosedurlarının sürətli və əlçatan olması da ölkənin cəlbediciliyini artırır. ABŞ və Böyük Britaniyanın sərtləşən immiqrasiya siyasəti müəyyən risklər yaratsa da, Türkiyə, Malayziya və BƏƏ kimi daha elastik yanaşma sərgiləyən ölkələr yeni alternativ mərkəzlər olaraq önə çıxırlar. Təhsil haqqı və yaşayış xərcləri də tələbələrin əsas seçim meyarlarındandır. ABŞ və Böyük Britaniya kimi bahalı təhsil bazarlarına alternativ olaraq Almaniya, Türkiyə və Şərqi Asiya ölkələri münasib maliyyə şərtləri ilə tələbə cəlb edirlər.

Son illərdə yeni tendensiyalar da meydana çıxıb. Ənənəvi "böyük beşlik"dən kənarda Türkiyə, Çin, Malayziya və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələr regional təhsil mərkəzi kimi güclənməkdədir. Onların üstünlükləri arasında münasib təhsil haqqı, daha asan viza şərtləri və geostrateji mövqeləri xüsusi yer tutur. Pandemiyadan sonra hibrid (onlayn + əyani) təhsil modellərinin yayılması da tələbələrə həm xarici diplom əldə etməyə, həm də xərclərə qənaətə imkan yaradıb. Texnologiyanın sürətli inkişafı, xüsusilə süni intellekt və rəqəmsal platformalar təhsili fərdiləşdirərək universitetlərə rəqabət üstünlüyü qazandırır. Digər tərəfdən, beynəlxalq səyahətlərin bahalığı ilə bağlı narahatlıqlar tələbələri daha yaxın regionlarda təhsil almağa və ya onlayn modellərə yönəldir.

Beynəlxalq tələbə bazarının inkişafına siyasi və hüquqi amillər də güclü təsir göstərir. İmmiqrasiya qaydalarındakı dəyişikliklər tələbə axınlarını istiqamətləndirir. Böyük Britaniya və ABŞ-ın sərtləşən siyasəti bazarda müəyyən boşluqlar yaradır, Kanada, Avstraliya və Türkiyə kimi ölkələr isə liberal viza şərtləri ilə yeni tələbə kütləsi qazanırlar.

Gələcəkdə beynəlxalq tələbə bazarı daha rəqabətli, texnologiyadan asılı və regional mərkəzlər üzrə şaxələnmiş bir struktur qazanacaq. Ənənəvi liderlər əsas oyunçular olaraq qalacaqlar, lakin Türkiyə, Çin, Malayziya və BƏƏ kimi yeni oyunçular münasib maliyyə və coğrafi üstünlükləri ilə bazarda paylarını artıracaqlar. Texnologiya və hibrid modellər beynəlxalq təhsili daha əlçatan edəcək, lakin siyasi və iqtisadi qeyri-müəyyənliklər bazarın ən böyük risk faktoru olaraq qalacaq.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

## İDMAN

### Dünya badmintonçuları Parisdə



**Azərbaycan Dünya Badminton Federasiyasının (BWF) Fransanın paytaxtı Parisdə keçirilən Şura iclasında təmsil olunub.**

Azərbaycan Badminton Federasiyasından verilən məlumata görə, badmintonun qlobal inkişafı üzrə əsas idarəetmə və strateji məsələlərin müzakirə olunduğu toplantıda dünyanın müxtəlif yerlərindən BWF Şura üzvləri bir araya gəlib.

Azərbaycan Badminton Federasiyasının prezidenti Taleh Ziyadov Avropanı təmsil edən BWF Şura üzvü statusunda iclasa qatılıb.

Qeyd edək ki, şura iclası badmintonun ən nüfuzlu tədbirlərindən biri olan dünya çempionatının keçirildiyi vaxta təsadüf edib. Mundialda Azərbaycan beynəlxalq reytinqdə 78-ci yerdə olan təmsilçimiz Edi Resky Dviçayo birinci turda dünya reytinqində 19-cu yerdə olan yaponiyalı Koki Vatanabeyə qalib gəlib.

### "Sea Breeze Cup" turnirinin qalibləri



**Azərbaycan Voleybol Federasiyası (AVF) və "Sea Breeze Resort"un birgə təşkilatçılığı ilə keçirilən çimərlik voleybolu üzrə "Sea Breeze Cup" turnirinin qalibləri bəlli olub. Yarışda 6 kişi və 6 qadın komandası mübarizə aparıb.**

Gərgin və maraqlı mübarizə şəraitində keçən oyunların nəticəsinə əsasən, qadınların yarışında "Milli" (Fidan Əhmədxanova/Səbinə Əlizadə) komandası qızıl, Larisa Smeltsova/Lizi Latsabitze cütü gümüş, "Milli U-18" (Xədicə Hadızadə/Cəmilə Bəşirova) komandası isə bürünc medalların sahibi olub.

Kişilərin yarışında isə "Milli" (Məhəmməd Aslanlı/İbrahim Məmmədov) komandası qızıl, "Azərreyl" (Tural Əsgərov/Nəriman Bayramlı) komandası gümüş, "Djevo Team" (Heydər Məmmədli/Fərda Dəryayev) komandası bürünc medal qazanıb.

### Avarçəkmə çempionatı başa çatıb



**Bu barədə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) mətbuat xidmətindən məlumat verilib. Yarış Gənclər və İdman Nazirliyi və Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının birgə təşkilatçılığı ilə baş tutub.**

Avarçəkənlər turnirin ikinci günündə 7 dəst medal uğrunda akademik, kayak və kanoe növlərində mübarizə apardılar.

Qaliblərə diplom və medallar təqdim edilib. Yarışda fərqlənən avarçəkənlər Azərbaycanda keçiriləcək III MDB Oyunlarında ölkəmizi təmsil edəcəklər.

*Qabil YUSİFOĞLU*
*XQ*

***✓ 2003-cü il iyulun 8-də Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası tərəfindən "AZPETROL" yedək gəmisinə verilmiş gəmiyə mülkiyyət hüququ haqqında DGR seriyalı, 0080 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

# Futbolda dövr edən milyardlar

## *Bu böyük biznesdə İngiltərə Premyer Liqasının öz yeri var*

**4 gündür ki, Avropa ölkələrinin futbol çempionatlarında yay transfer pəncərəsi bağlanıb. Statistiklərin apardığı araşdırmalar göstərir ki, bu zaman diqqətçəkən əsas nəticə İngiltərə Premyer Liqası ilə futbol dünyasının qalan hissəsi arasında böyük maliyyə uçurumunun olmasıdır.**

Bu yay Premyer Liqa klubları nə az, nə çox, transferlərə 3,58 milyard avro xərcləyiblər ki, bu da Seriya A, Bundesliqa, La Liqa və Liqa 1-in klublarının birlikdə xərclədiklərinin cəmindən çoxdur. Bununla da İngiltərə Premyer Liqası 2,36 milyard funt sterlinq xərclədiyi 2023-cü ilin yay transfer pəncərəsindəki rekordunu tarixdə yazaraq, 2025-ci ilin yayında transferlərə 1,22 miyard funt sterlinq çox vəsait xərcləyib.

Əgər Avropanın ən yaxşı 5 liqasından kənara baxsaq, Premyer Liqa ilə fərqin daha da böyük olduğunu görərik. Məsələn, Rusiya–Ukrayna müharibəsinə qədər rusiyalı milyarder Roman Abramoviçə məxsus olan "Çelsi" klubu bu yay bütün Türkiyə Superliqası klublarının bir yerdə çəkdikləri xərcdən 7 milyon avro çox vəsait xərcləyib. "Liverpul" isə Portuqaliya və Səudiyyə Ərəbistanı liqalarının bərabər xərclədiyi vəsaiti üstələyib.

Yaxud Premyer Liqanın digər bir klubu "Nyukasl" Nick Voltemada görə, "Ştutqart" klubu üçün rekord sayılan 85+5 milyon avro ödəyib. Halbuki alman futbolçunun transfer dəyəri "Trasfermarketdə" 30 milyon avrodan yuxarı qalxmırdı. "Sərçələr" Almaniyanın "Bavariya" klubu ilə bəhsə girib bu futbolçu üçün lazım gələndən xeyli artıq pul ödəyiblər.




Voltemade ilə müqavilə bağlamağa gücü çatmayan "Bavariya"nın baş məşqçisi Vinsan Kompani dünya futbolunda Premyer Liqanın maliyyə hegemonluğunu çox mükəmməl şəkildə izah edərək deyib: "İngiltərədə Premyer Liqaya yüksəldikdən dərhal sonra komandanın büdcəsi cəmi bir il ərzində 20–25 milyondan 120–130 milyona yüksəlir. Bundesliqa üçün bu, təxminən, çempionatın ilk 8-liyi, bəlkə də ilk 6-lığıdır. Ona görə də gözlənilmədən Premyer Liqaya yenicə qədəm qoyan klub oyunçu bazarında rəqabət apara bilir.

Nə danışdığımı yaxşı bilirəm: "Bernli"də biz "Ayntraxt" və "Volfsburq"la oyunçuların satın alınması uğrunda yarışırdıq. İndi "Sanderlend" "Bayer"dən oyunçu alır və "Milan"la rəqabət aparır. Sizə qəribə gəlməsin, bu, sadəcə, futbol dünyasının maliyyə reallığıdır".

Uzun müddət İngiltərə Premyer Liqasında top qovan və ilk məşqçiliyini Premyer Liqanın "Bernli" klubunda reallaşdıran Vinsan Kompani haqlıdır. Bu gün dünya futbolunda milyardlarla vəsait dövr edir. Onların, sadəcə, bir qismi transfer bazarında görünür. Məsələn, son transfer pəncərəsində İngiltərə Premyer Liqasının hazırkı çempionu "Liverpul" klubu transfer pəncərəsinin bağlanmasına bir gün qalmış "Nyukasl Yunayted"dən Aleksandr İsakı transfer edib. Klub 6 illik müqavilə imzaladığı 25 yaşlı futbolçu üçün "Nyukasl"a 125 milyon funt sterlinq vəsait ödəyib.

Təbii ki, bu, aysberqin görünən tərəfidir və onun görünməyən tərəflərində daha böyük pullar dövr edir. Məsələn, oxuduğum məlumata görə, son təqvim ilində bukmekerlər futboldan 10 milyard dollardan çox pul qazanıblar. Təkcə qonşu Rusiyada leqal kontorların bukmekerləri bu müddətdə 800 milyon dollar qazanca sahib olublar.

Bütün bunlar bir daha onu göstərir ki, futbol, sadəcə, bir tamaşa və oyun yox, həm də milyardlarla vəsaitin dövr etdiyi biznesdir. Amma bu biznesə yatırım qoymadan böyük pullar qazanmaq elə də asan deyil.

*İlqar RÜSTƏMOV*
*XQ*

## Hava

### Bakıda qısamüddətli yağış, bölgələrdə yağış və dolu

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, axşam mülayimləşəcək.**

Havanın temperaturu gecə 20-24, gündüz 28-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi 755 millimetr civə sütunundan 758 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.



Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı ehtimalı var. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 18-23, gündüz 32-37, dağlarda gecə 13-18, gündüz 20-25 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3502
SİFARİŞ 1736
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00